


## İlham Əliyev türk dövlətlərinin nazirlərini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları - Türk Dövlətləri Təşkilatının Baş katibi...*

Səh.3


# UNİKAL

№33 (2167) 8 sentyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.az   unikal-1@mail.ru




## Cahangir Əsgərovla bağlı çoxdan gözlənilən qərarda gözlənilməz detallar

*Nəhayət, gözlənilən baş verdi: "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərovun karyerasına son qoyuldu. O, ölkə başçısının sərəncamı ilə tutduğu vəzifədən azad edilib. Əsgərov düz 27 il idi ki, eyni vəzifəni tuturdu - 1996-cı ildən AZAL-a rəhbərlik edirdi. Həmin il o, AZAL-ın direktoru, 2008-ci ildən isə QSC-nin prezidenti vəzifəsini daşıyırdı. Bu müddətdə Cahangir müəllim daha çox qalmaqallarla yadda qalıb. Həmin qalmaqallardan biri "Abşeron" otellə bağlıdır. Yerli media yazır ki, bu hadisə təxminən 5 il əvvəl baş verib. Həmin vaxt mediada yayılan məlumatlarda bildirilirdi ki, Cahangir Əsgərov "Abşeron" otelinin restoranında pomidor-yumurta çığırtması sifariş edib. Lakin yemək Cahangir Əsgərovun xoşuna gəlməyib. O, kobud şəkildə ofisianta etiraz edib.*

Səh.8

Səh.9



## Ermənistan sülh istəmirsə, Azərbaycan Ordusundan növbəti sərt cavab alacaq...

## "Ermənistanın gələcəkdə dövlət olaraq mövcudluğu sual altındadır"



*Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, son günlər Ermənistan və Rusiya arasında gərginliyin artmasından, regionda hansı dəyişikliklərin ola biləcəyindən, qondarma rejimin Azərbaycanın Qarabağda yaşayan ermənisilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün göndərdiyi...*

Səh.4

## Hikmət Hacıyevin İsrailə ani səfərinin pərdəarxası



*Xəbər verildiyi kimi, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailə səfər edib. Politoloq Turan Rzayev hesab edir ki, səfərin ani olması və gözlənilmədən baş verməsi diqqət çəkir. Onun sözlərinə görə...*

Səh.9

## Yeganə günahkar erməni separatçı rejimidir - Elçin Əmirbəyov



*"Qarabağda bugünkü "humanitar vəziyyət"in yeganə günahkarı erməni separatçı rejimidir". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov DW-yə müsahibəsində deyib. "Ermənistanın indi bütün dünyada başlatdığı kampaniya Azərbaycanı ləkələmək...*

Səh.2

# Röya: “Hər iki aydan bir geyimə 500 min manat xərcləyirdim”

***”Mənə qarışmayın. Məni insanlar sevir, çünki mən də onları sevirəm. Mənim qədər iş görün. Efirdə ”fil” olub, mənə söz atanlar... Sonra sevərək məni yanınızda görmək istəməyin, rica edirəm. Məni olduğum kimi qəbul edin”.***



“Unikal” bizim.media-ya istinadla xəbər verir ki, bu sözləri Konqres Mərkəzində üç gün canlı solo konsert proqramı ilə çıxış edən Xalq artisti Röya Ayxan ”Sabahın xeyr, Azərbaycan!” verilişinə müsahibəsində deyib. Sənətçi konsertinin məşqləri zamanı ona prodüseri tərəfindən verilən ən yaxşı məsləhətdən söz açıb. Əvvəllər hər iki aydan bir geyimlərə yarım milyon pul xərclədiyini söyləyən Röya bildirib ki, oğlunun gələcəyi üçün bu alış-veriş sevdasından imtina etməli olub: ”Aldığım ən yaxşı məsləhət prodüserim Kənan Bayramovdan olub. Mənə söylədilər ki, bəsdir, hər iki aydan bir 500 min manatlıq mağazaya geyimlər üçün pul xərclədin. Dedilər ki, sənin oğlun Hüseyn var. O vaxt keçəndə sənə sual verəcək ki, sən hər şey etdin, bəs mənim üçün nə etdin? Buna görə də, o hobbimi dəyişdirdim. Artıq başqa hobbim var. Onu da deməyəcəm, artıq nə alıram”.

## Arif Babayev konservatoriyadakı vəzifəsindən getdi, yerinə Mənsum İbrahimov gəldi



***Xalq artisti Arif Babayev Azərbaycan Milli Konservatoriyasının Muğam kafedrasının müdiri vəzifəsindən azad edilib.***

Bu barədə ”Unikal”a sənətkar özü məlumat verib. O, bildirib ki, özünün istəyi ilə vəzifəsindən uzaqlaşdırılıb. O, deyib ki, özünün istəyi ilə vəzifəsindən uzaqlaşdırılıb: ”Bu barədə əmri rektorumuz verir. İkinci bir tərəfdən də artıq gücüm çatmır. Amma yenə də professor kimi orda qalıram”. Xalq artisti hazırda səhhətinin normal olduğunu bildirib.

Xalq artisti Mənsum İbrahimov Azərbaycan Milli Konservatoriyasının Muğam kafedrasının müdiri vəzifəsinə təyin olunub. Bu haqda Axşam.az-a açıqlamasında xanəndə özü bildirib. O qeyd edib ki, sentyabrın 5-dən vəzifəsini icra etməyə başlayıb:”Ölkəmizdə muğama hər zaman diqqət ayrılıb. Buna görə Birinci xanım Mehriban Əliyevaya təşəkkür edirəm. Mən də bir əsgər kimi muğama hər zaman xidmət edəcəyəm. Bu vəzifəni məndən əvvəl Xalq artisti Arif Babayev icra edirdi. Hazırda səhhəti ilə bağlı bəzi problemləri var. Ona görə də mənə həvalə olundu. Ötən gün Arif Babayevin evinə getdim, xeyir-duasını aldım. Arif Babayev hər zaman olduğu kimi konservatoriyamızın professoru olaraq qalır. Konservatoriyada təhsil üçün bütün şərait var. Bu etimadı mənə göstərdiyi üçün Siyavuş Kərimiyə ( Azərbaycan Milli Konservatoriyasının rektoru - red.) təşəkkür edirəm. Ölkəmizin bütün istedadlı xanəndələri universitetimizdədir”.

Qeyd edək ki, M.İbrahimov bu günə kimi Azərbaycan Milli Konservatoriyası və konservatoriyanın nəzdində fəaliyyət göstərən musiqi kollecinin müəllimi kimi çalışırdı.



## Keçmiş gəlinindən Mətanət İsgəndərliyə: "Anamın ruhu tutsun səni"

***Xəbər verdiyimiz kimi, əməkdar artist Mətanət İsgəndərli ilə keçmiş gəlini Canana arasında qalmaqal yaşanır.***

“Unikal” olay-a istinadən bildriir ki, bir neçə gündür davam edən qalmaqal Mətanət İsgərlinin ”Yaxşıya doğru” verilişində Canana haqda səsləndirdiyi fikirlər olub.

Ötən gündən başlayaraq isə əməkdar artistin keçmiş gəlini qarşı tərəfə sosial şəbəkə paylaşımlar edərək cavab verir.

”Anam rəhmətlik quzunu qurda tapşırıb gedib. Anamın ruhu tutsun səni, Mətanət İsgəndərli. Hər dediyin yalanlara görə Allah cəzanı versin”- deyə Canana paylaşımlarından birində qeyd edib.

## "Borc içində üzməyin də öz ləzzəti var" - Fədayə Laçın

***Müğənni Fədayə Laçının sosial şəbəkədə pulla bağlı paylaşımı diqqət çəkib.***



”Unikal” xəbər verir ki, o, ”pulun bələdçisi olmayın. Pulunuz varsa yeyin. Borc alın və həmin an yeyin” sözlərinin yer aldığı video yayımlayıb.

Fədayə paylaşıma ”Mənim kimi, dağıdın getsin. Borcun içində üzməyin də öz ləzzəti var” sözlərini yazıb.

Qeyd edək ki, Fədayə oğlu Əhləmlə birlikdə Moskvada yaşayır.

# Azərbaycan XİN Paşinyana cavab verdi



***Ermənistanın baş naziri Nikol Paşinyanın 7 sentyabr tarixində hökumət iclası zamanı Azərbaycanı bölgədə hərbi-siyasi vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi, guya Azərbaycanın ərazidə qüvvələr cəmləşdirməsi iddiaları irəli sürməsi Ermənistan tərəfinin növbəti saxta siyasi manipulyasiyasının tərkib hissəsidir.***

Bu barədə ”Unikal”a XİN-dən məlumat verilib. Bildirilib ki, bölgədə təhlükəsizliyə əsl hədənin Ermənistan tərəfindən hərbi-siyasi təxribatların davam etməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı baş nazir daxil olmaqla Ermənistan tərəfinin davam edən iddiaları, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri olduğu hər kəsə məlumdur.

Bölgədə sülh və təhlükəsizliyin bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, hərbi və siyasi təxribatlara son qoymalı, sülh müqaviləsi danışıqlar prosesinin uğurla nəticələnməsi istiqamətində törədilən maneçilikləri dayandırmalıdır.

# "Ödənişli yollar ödənişsiz yolları baxımsız hala gətirməli deyil" - Ekspert

***”Alternativi olan ödənişli yolların tərəfdarıyam. Bir şərtlə ki, bu, ödənişli yoldan istifadə edənlərin sayı artsın deyə alternativ olan ödənişsiz yolların baxımsız hala gətirməsinə səbəb olmamalıdır”.***




”Unikal” xəbər verir ki, bunu iqtisadçı ekspert Eldəniz Əmirov deyib. O bildirib ki, Yeni salınan Bakı-Quba-Rusiya avtomobil yolunun 129 kilometr hissəsinin ödənişli yol kimi müəyyən edilməsini müsbət dəyərləndirir:

”Bunun bir çox aspektlərdən ciddi faydaları olacaq. Amma sərhədlər açılmasa, bu yolun rentabelli fəaliyyəti sual altında qala bilər. Hazırda ölkədə ikinci ödənişli yol kimi Bayıl və Zığ qəsəbələrini Xəzər dənizi üzərindən birləşdirən ödənişli yolun tikintisinə daha çox ehtiyac var. Bakının avtomobil sıxlığını, Bayıldan Zığa aparan küçələrin əsasən alternativsiz olduğunu nəzərə alsaq, bu layihə paytaxtın “rahat nəfəs alması” üçün önəmli layihə olardı. Sürücülərin saatlarla tıxacda itirdikləri zaman bir yana, itirdikləri yanacağın kiçik bir hissəsi müqabilində ödəniş etməklə hərtərəfli faydalana bilərlər. Eyni zamanda, layihəyə çəkilmiş xərc asanlıqla geri dönə bilər. Sonrakı uzun illər boyu davamlı gəlir yeri olar. Ən əsası isə bu dövlət-özəl tərəfdaşlığı üzrə investisiya qoyuluşlarına ciddi töhfə olar”.

Qeyd edək ki, ötən gün Nazirlər Kabineti “M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni avtomobil yolunun 129 kilometrlik hissəsinin ödənişli yol kimi müəyyən edilməsinə dair tədbirlər haqqında” qərar verib. Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni 150 kilometrlik avtomobil yolunun 129 kilometr hissəsi ödənişli yol kimi müəyyən edilib.

***Seymur Əli***

# Cahangir Əsgərovla bağlı çoxdan gözlənilən qərarda gözlənilməz detallar

## Cəmiyyətin bütün təbəqələrinin, hətta millət vəkillərinin də narazı olduğu AZAL-da nə(lər) dəyişəcək?

***Nəhayət, gözlənilən baş verdi: ”Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərovun karyerasına son qoyuldu. O, ölkə başçısının sərəncamı ilə tutduğu vəzifədən azad edilib. Əsgərov düz 27 il idi ki, eyni vəzifəni tuturdu - 1996-cı ildən AZAL-a rəhbərlik edirdi. Həmin il o, AZAL-ın direktoru, 2008-ci ildən isə QSC-nin prezidenti vəzifəsini daşıyırdı.***

Bu müddətdə Cahangir müəllim daha çox qalmaqallarla yadda qalıb. Həmin qalmaqallardan biri ”Abşeron” otellə bağlıdır. Yerli media yazır ki, bu hadisə təxminən 5 il əvvəl baş verib. Həmin vaxt mediada yayılan məlumatlarda bildirilirdi ki, Cahangir Əsgərov ”Abşeron” otelinin restoranında pomidor-yumurta çığırtması sifariş edib. Lakin yemək Cahangir Əsgərovun xoşuna gəlməyib. O, kobud şəkildə ofisianta etiraz edib. Yeməyin yaxşı bişirilmədiyini iddia edib. Cahangir Əsgərovun ətrafındakılar müdaxilə edərək qalmaqalın davaya çevrilməsinin qarşısını alıb.



Lakin AZAL ”şef”ini mətbuatın və ictimaiyyətin, hətta millət vəkillərinin belə tənqid hədəfinə çevirən səbəblərin yanında bu tip qalmaqallar, az qala, ”toya getməlidir. Söhbət onun ”Azərbaycan Hava Yolları”ndakı fəaliyyətindən gedir. Əsgərovun adıçəkilən QSC-yə rəhbərliyi zamanı onun ailə biznesi ildırım sürətilə çiçəklənib. Cahangir müəllim ölkənin faktiki olaraq əsas oliqarxlarından birinə çevrilib, qurduğu ”biznes imperiyası” ölkə sərhədlərini də aşıb. Əvəzində isə AZAL ilbəil zərərlə işləyən, borc bataqlığında çırpınan dövlət şirkəti statusu ”qazanıb”. Özü də monopolist mövqeləri olduğu və dövlətdən dotasiya aldığı halda!

Hələ biz ”Azərbaycan Hava Yolları”nın bahalı uçuş biletlərini demirik. Faktiki olaraq bu biletlərin qiyməti fantastik həddədir və cəmiyyət tərəfindən ciddi narazılıqla qarşılanır. Milli Məclis üzvlərinin bir çoxu belə mətbuata açıqlamalarında Cahangir Əsgərovu məhz sözügedən qiymət siyasətinə görə soyğunçuluqda ittiham ediblər! Ancaq bütün bunların müqabilində də AZAL zərərlə işləməkdən və ilbəil daha çox borclanmaqdan qurtula bilməyib. Baxmayaraq ki, həmin zərər və borclar fonunda Əsgərovun ailə şirkətləri get-gedə daha da böyüyüb və şaxələniblər.

Xatırladaq ki, ”Azərbaycan Hava Yolları”nın 2021-ci ilin əvvəlinə olan borclarının həcmi 2,18 milyard manatdan çoxdur! C.Əsgərovun 27 illik fəaliyyətini dəyərləndirmək üçün bu faktın özü kifayət edir. Ən əsası isə Cahangir müəllimin fəaliyyəti ölkə başçısı səviyyəsində də ciddi tənqid olunub. ”Aviabiletlərin qiyməti bəzi hallarda süni şəkildə qaldırılır. Sual olunur: nəyə görə? Nə üçün?.. Azərbaycan yanacağı xaricdən almır, özü istehsal edir. Başqa ölkələrə nisbətən ağ neft ucuz qiymətə verilir axı! AZAL dövlət tərəfindən böyük subsidiyalar alır. Bütün təyyarələr dövlət büdcəsinin vəsaiti hesabına alınır, bütün aeroportlar dövlət hesabına tikilir, bütün şərait dövlət hesabına yaradılır. Nəyə görə biletlərin qiyməti başqa ölkələrə, şəhərlərə nisbətən baha olmalıdır? Nə üçün?”, - deyə Prezident müşavirələrin birində bildirmişdi.

AZAL ”şef”inin bu qurumda maliyyə maxinasiyalarına yol verdiyinə dair də ötən illər ərzində saysız-hesabsız iddialar, ittihamlar irəli sürülüb. Lakin Cahangir müəllim başda iqtisadçı ekspertlər olmaqla müxtəlif KİV-lər tərəfindən dilə gətirilən bu iddia və ittihamlara bir qayda olaraq susmaqla reaksiya verib. Həm də Azərbaycan cəmiyyətində susmağın razılıq əlaməti olduğunu bildiyi halda!

Bir sözlə, onun AZAL-a rəhbərlik etdiyi dövr neqativliklərlə zəngindir və bu səbəbdən də vəzifəsindən uzaqlaşdırılması sürpriz deyil.

İndi cəmiyyəti düşündürən başlıca sual budur: Cahangir Əsgərovun gedişi ”Azərbaycan Hava Yolları”nın fəaliyyəti ilə bağlı ictimai rəydəki müsbət gözləntiləri stimullaşdıracaqmı? Məsələn, ictimaiyyətdə hər kəsin giley-güzar elədiyi uçuş biletlərinin qiymətləri nəhayət ki, optimallaşdırılacaqmı, vətəndaşın cibinə uyğunlaşdırılacaqmı? Hətta qonşu ölkələrlə müqayisədə belə ”ceyran belinə qaldırılmış” həmin qiymətlərin aşağı salınması istiqamətində nəhayət ki, konkret addım atılacaqmı?

Digər tərəfdən, AZAL-ın şəffaflığa və hesabatlılığa ciddi ehtiyacı var. Çünki bu qurumda korrupsiyanın dərin kök saldığına dair illərdir formalaşmış təsəvvürləri, təəssüratları başqa cür dəyişmək mümkün deyil. İqtisadçı Natiq Cəfərlinin də dediyi kimi, ”Azərbaycan Hava Yolları”nın idarəetməsi ilə bağlı çoxsaylı suallar var və əgər yeni təyin olunacaq rəhbərlik idarəetmə strategiyasını, fəlsəfəsini, yanaşmasını dəyişməsə, köhnə qayda və köhnə idarəetmə davam etsə, o zaman Cahangir Əsgərovun gedişi çətin ki, müsbət mənada real nəticələr doğursun. Yeri gəlmişkən, ekspert onu da bildirib ki, vətəndaşın gözləntisi belədir: AZAL inhisarçılığa son qoyacaq, ölkədə bu sahədə rəqabətli mühit formalaşacaq və nəticə etibarı ilə də ”Azərbaycan Hava Yolları” rəqabətli mühit şəraitində fəaliyyət göstərdikcə, qiymətlər də enəcək.

Bu gözləntinin özünü doğruldub-doğrultmayacağını isə yəqin ki, qısa vaxtda görməyə başlayacağıq...

P.S. Maraq üçün bildirək ki, Cahangir Əsgərovun 2023-cü ildə vəzifəsindən azad ediləcəyi gözlənilən biri olduğunu ”Unikal” qəzeti ötən ilin dekabrındakı son saylarından birində yazmışdı. Bir müddət öncə isə həmin iddianı yeniləmiş və AZAL ”şef”inin hər an postundan kənarlaşdırıla biləcəyini qeyd etmişdik.

***Toğrul Əliyev***

# Ermənistan sülh istəmirsə, Azərbaycan Ordusundan növbəti sərt cavab alacaq...

***Son günlər Ermənistan tərəfi müxtəlif müstəvilərdə təxribatçı siyasətini davam etdirməkdədir. Hətta İrəvan rəhbərliyi bir sıra qərb dairələrindəki havadarlarını da anti-Azərbaycan kampaniyasına cəlb edərək prosesi daha da qəlizləşdirib. Belə ki, artıq sülh prosesinin tamamilə dalana dirəndiyi, yenidən hərbi əməliyyatların keçirilməsi məsələsi gündəmə gəlib.***

Rəsmi Bakının da mövqeyi kifayət qədər aydın və sərtdir. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin beynəlxalq "i24NEWS" telekanalına müsahibəsində deyib ki, Ermənistan Azərbaycanla sülhün bərqərar olmaması üçün əlindən gələni edir. O qeyd edib ki, Azərbaycan bu müharibənin başa çatdığına inanır: "Təəssüf, Ermənistan tərəfinin addımlarından görünən odur ki, o, Azərbaycanla sülhün bərqərar olmaması üçün əlindən gələni edir. Amma biz sülhə nail olmaq imkanının itirilməsinə yol verməK istəmirik".



H.Hacıyevin sözlərinə görə, Azərbaycan Ermənistana sülh sazişi imzalamağı təklif edib: "Bu proses ABŞ və bir sıra digər ölkələr tərəfindən dəstəklənir. Lakin ikinci mühüm mərhələ Qarabağ əhalisinin Azərbaycanın siyasi, iqtisadi və sosial spektrinə reinteqrasiyasıdır".

"Təəssüf ki, Ermənistana tabe olan, onun tərəfindən maliyyələşdirilən və dəstəklənən separatçı qurumu görürük. Onlar boz zona statusunu saxlamaq və Azərbaycanın siyasi, sosial, iqtisadi həyatına reinteqrasiya olmamaq istərdilər", - Prezidentin köməkçisi vurğulayıb. O bildirib ki, Azərbaycan yeni yollar salıb, həmçinin onları ölkənin qalan hissəsi ilə birləşdirib: "Ermənistanı Qarabağla birləşdirən Laçın-Xankəndi yolu var. Amma logistika və nəqliyyat baxımından daha səmərəli, böyük potensiala malik, bütün Azərbaycan bazarlarına və qonşu ölkələrə birbaşa çıxışı olan Ağdam-Xankəndi yolu da var". H.Hacıyev əlavə edib ki, bu, reinteqrasiya prosesi üçün yaxşı imkandır: "Lakin qarşı tərəf inadla "yox" deyir".

Mövcud durumla bağlı fikirlərini "Unikal"la bölüşən hərbi ekspert Üzeyir Cəfərov deyib ki, son zamanlar Azərbaycanın Qarabağ bölgəsində yaşayan separatçı qüvvələrin təxribatlarının sayı artıb. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı bir daha onları xəbərdar etdi ki, Azərbaycan ərazisində heç bir halda separatizmə yer yoxdur. Ekspert bildirib ki, separatçılar deyilənlərdən nəticə çıxarmalıdırlar: "Ermənistanın daxilində olan gərginlik, separatçılar arasında didişmələr onu deməyə əsas verir ki, onlar yenə də hansısa bir toqquşmanın marağındadırlar. Nəticədən isə əvvəldən xəbərdardırlar. Onlar bilirlər ki, heç nəyə nail ola bilməyəcəklər. Özləri bilərlər. Belə bir atalar sözü var: "Özü yıxılan ağlamaz". Əgər ermənilər belə təxribatçı addımlarına davam etsələr, Azərbaycan qəti addımlar atacaq. Biz bunu heç vaxt gizlətməmişik. Bu, Azərbaycanın daxili işidir və haqqımızdır. Separatçıların orada qondarma seçki keçirmələrinin və yaxud hər hansı bir "qurum" yaratmalarının heç bir perspektivi yoxdur. Həmçinin, həmin əraziyə Şahramanyanın, Vardanyanın gəlməsi də yenə heç nəyi dəyişdirməyəcək. Bununla onlar özlərinin vəziyyətlərini bir qədər də çətinləşdirəcəklər", - deyə o vurğulayıb.

Üzeyir Cəfərov həmçinin Azərbaycan Ordusunun anti-terror əməliyyatını həyata keçirməsi ehtimalından da danışıb. "Anti-terror əməliyyatı şəraitdən asılı ola bilər. Əgər onlar açıq təxribatlarına davam etsələr, biz də durub onlara baxan deyilik. Cavablarla və bəyanatlarla kifayətlənməyəcəyik. Onlara qarşı qəti cavab tədbirləri görəcəyik. Anti-terror əməliyyatları açılmazdır. Azərbaycan Silahlı Qüvvələri buna hər zaman hazırdır. Anti-terror əməliyyatının vaxtını isə yalnız ölkə rəhbərliyi və hərbi komandanlıq bilir", - deyə hərbi ekspert qeyd edib.

Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Ermənistan Baş naziri Nikol Paşinyan Cənubi Qafqazda yeni bir "siyasi ssenari" ortaya qoyub. Bu ssenari, Parisdə hazırlanıb və məqsəd regionda Fransanın domenantlığı altında, yeni bir siyasi nizama sahib olmaqdır. Onun qənaətincə, Paşinyan İtaliya mətbuatına verdiyi müsahibədə anti-Rusiya mövqeyini ortaya qoyaraq, regiondan Rusiyanın çıxacağının mesajını verdi: "Erməni baş naziri Qərbi regiona gətirməklə, bir neçə siyasi məqsədlərə nail olmağı planlaşdırır. Birinci, Azərbaycana qarşı yeni bir təzyiq formalaşdıraraq, Laçın yolunu tam açmaq. Həmçinin Qarabağda separatizmin inkişaf etdirilməsi. Sonra Rusiyanı Cənubi Qafqazdan çıxarmaq. Türkiyənin artan geosiyasi mövqeyinin qarşısını almaq. N.Paşinyan Qərbin regionda "etibarlı" müttəfiqi roluna girib geosiyasi nizamı dəyişməyə çalışır. Ona görə də 2 sentyabrda verdiyi açıqlamada Qarabağda ermənilərin təhlükəsizliyi təmin edilməsə, Qarabağın Azərbaycan daxilində ərazi vahidliyinin qəbul edilməyəcəyi mesajını verdi. Bu, N. Paşinyanın artıq yeni bir siyasi "mərhələyə" başlamasını göstərir. Məhz İran vasitəsilə silahların Ermənistana daşınması, Fransanın da birbaşa siyasi-hərbi dəstəyi N.Paşinyanın ikinci Qarabağ müharibəsindən sonra formalaşmış nizamı pozmağa çalışdığını göstərir. Türkiyə də cənub sərhədlərində Ermənistanın yeni təxribatçı siyasi hərbi planından xəbərdardır".

Politoloq onu da qeyd edib ki, Fransanın və İranın Ermənistanın əli ilə yaratmaq istədiyi yeni nizamın Ermənistan üçün ağır nəticələri olacaq: "Yeni hərbi məğlubiyyət fonunda erməni xalqı N. Paşinyanı bağışlamayacaq. N. Paşinyanı devirib həbsxanaya göndərəcəklər, ya da Respublika meydanında edam edəcəklər. Erməni əhalisi sülh üçün N. Paşinyana səs verdi, yeni geosiyasi planlara alət olmaq üçün yox. Paşinyan təhlükəli sularda üzür və bu, su onu batıracaq".

***Murad İbrahimli***



# Hikmət Hacıyevin İsrailə ani səfərinin pərdəarxası

***Xəbər verildiyi kimi, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailə səfər edib.***

Politoloq Turan Rzayev hesab edir ki, səfərin ani olması və gözlənilmədən baş verməsi diqqət çəkir. Onun sözlərinə görə, bir digər məsələ də Hikmət Hacıyevin keçirdiyi görüşlərdir. Belə ki, o, əvvəlcə İsrail Xarici İşlər Nazirliyinin baş direktoru Ronen Levi, daha sonra isə İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşüb: "Hər iki görüşlə bağlı informasiya çox azdır. Lakin bununla belə son zamanlar Ermənistanla Azərbaycan arasında gərginliyin artması və təxribatların intensivləşməsi Hacıyevin keçirdiyi görüşlərdə nələrin müzakirə olunduğuna dair ipucları verir. Ronen Levi ilə görüşdə ikitərəfli əlaqələr, ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi imkanları müzakirə edilib. Prinsip etibarilə Azərbaycan-İsrail münasibətləri hərbi-siyasi, iqtisadi-diplomatik və digər sahələrdə yüksək səviyyədə inkişaf edir.

Aydın məsələdir ki, H.Hacıyev Ronen Leviyə bunu xatırlatmaq üçün İsrailə getməyib. Məsələ ondadır ki, Araik Arutyunyanın "istefası"ndan sonra Xankəndi və ətraf ərazilərdəki separatçılar arasında böhran dərinləşir. Bu, rəsmi Bakının əraziyə nəzarəti tam ələ keçirməsi baxımından ideal fürsətdir. Yəni "seçki" zamanı və ya sonrasında vəziyyət silahlı insidentə keçərsə, Bakının Xankəndiyə müdaxiləsi baş tuta bilər".

Politoloq onu da vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin 1 sentyabr təxribatlarına Azərbaycan tərəfi layiqli cavab versə də, aydın məsələdir ki, bu təxribatların ardı gələcək: "Buna görə də rəsmi Bakı ehtimal ssenarilərə qarşı qabaqlayıcı tədbirlər görür. Həm Ermənistanın şərti dövlət sərhədində təxribatlar və Azərbaycanın buna verəcəyi cavab fonunda, həm də Bakının Xankəndiyə müdaxilə ehtimalı halında regionda gərginlik yenidən pik həddə çata bilər. Rəsmi Bakı belə olan təqdirdə Ermənistanın dezinformasiyalara əl atacağı və dünya miqyasında başladacağı ehtimal kampaniyaların qarşısını almaqdan ötrü diplomatik təmasları intensivləşdirib. Mümkündür ki, H.Hacıyev Ronen Levi ilə bu məsələləri müzakirə edib. İsrailin Baş naziri B.Netanyahu ilə görüş zamanı da yuxarıda qeyd etdiyim detallardan bəhs edildiyini demək olar.

Hacıyev-Netanyahu görüşündən sonra Azərbaycanın İsraildəki səfirliyinin "X" səhifəsində bu paylaşım edilib: "Benyamin Netanyahu cənab Hacıyevi qəbul edib, o, İlham Əliyevin salamlarını və ən xoş arzularını Baş nazirə çatdırıb. Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq məsələləri və gələcək perspektivlər müzakirə olunub".

Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq məsələləri və perspektivlərin müzakirə olunması diqqət çəkir. Mümkündür ki, bu perspektivlər yuxarıda qeyd etdiyim məsələlərlə bağlıdır".

# Prezident İlham Əliyev qəbul keçirdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, söhbət zamanı bu ilin yanvarında Davosda Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüşü məmnunluqla xatırlandı.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritetlər sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta Dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olundu.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə Cənubi Qaz Dəhlizinə ayırdığı kreditlərin vacibliyi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "İran tərəfdən müsbət siqnallar alırıq" - Prezidentin köməkçisi

***Azərbaycan iki ölkə arasında münasibətlərin normallaşması məsələsində İran tərəfdən müsbət siqnallar alır.***



"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin beynəlxalq "i24NEWS" telekanalına müsahibəsində deyib.

O qeyd edib ki, Azərbaycanın bütün qonşularla yaxşı münasibət qurması çox vacibdir. "Ölkənin yürütdüyü siyasət Azərbaycanın həmsərhəd olduğu bütün ölkələrlə sabit və qarşılıqlı faydalı əlaqələr saxlamaqdan ibarətdir. İranla Azərbaycan arasında müəyyən anlaşılmazlıqlar olub. Amma biz diplomatik kanallardan və dialoqdan istifadə edərək bunu həll etməyə çalışırıq və İran tərəfdən də müsbət siqnallar alırıq", - Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan bu səhifəni çevirmək və bütövlükdə regionda, həmçinin iki ölkə arasında əməkdaşlıq və dialoq üçün daha əlverişli mühit yaratmaq üçün iranlı həmkarları ilə diplomatik təmasları davam etdirir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



# Müəllimlərin vakansiya seçimi yekunlaşdı

***Müddətli müqavilə ilə müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin vakansiya seçimləri bu gün yekunlaşıb.***

Bu barədə Təhdil İnstitundan məlumat verilib. Belə ki, sentyabrın 5-də başlayan vakansiya seçimi 7 sentyabr saat 12:00-da yekunlaşıb.

Namizədlərə şəxsi səhifələrinə daxil olaraq 4 vakant yer seçimi edə bilmək imkanı yaradılıb.

# "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC yaradılır

***Müdafiə Sənayesi Nazirliyinin tabeliyində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti yaradılır.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Müəyyən edilsin ki, Cəmiyyət silah istehsalının, ixracının, satışının təşkilini həyata keçirir, tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirəcək. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət Müşahidə Şurası yaradılacaq.

Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi baş direktor həyata keçirir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "İqlim Elmi-İstehsalat Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Sənayecihaz" Elmi-İstehsalat Müəssisəsi Cəmiyyətin tabeliyinə verilib.

Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilib:

Azərbaycan Respublikasının Prezidentinə:

Cəmiyyətin yenidən təşkili və ləğvi;

Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının yaradılması;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Müşahidə Şurasının rəhbərinin və üzvlərinin, habelə icra orqanının rəhbərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

Cəmiyyətin işçilərinin say həddinin və strukturunun müəyyən edilməsi;

Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə:

Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

Cəmiyyətin törəmə və asılı cəmiyyətlərinin yaradılmasına razılıq verilməsi;

Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək; Cəmiyyətin əməkhaqqı sistemini müəyyən etmək, xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək; Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək; Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək; bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etməkdir.

Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

# Yeganə günahkar erməni separatçı rejimidir - Elçin Əmirbəyov

***"Qarabağda bugünkü "humanitar vəziyyət"in yeganə günahkarı erməni separatçı rejimidir".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov DW-yə müsahibəsində deyib.

"Ermənistanın indi bütün dünyada başlatdığı kampaniya Azərbaycanı ləkələmək və bizi bütün mümkün günahlarda ittiham etmək, eləcə də humanitar çətinliklərlə bağlı manipulyasiya etmək üçün taktiki addımdır. Bu kampaniya ilə o yerlərdə status-kvonu gücləndirməyə, sülh prosesində iştirakı imitasiya etməyə və irəliləyişin olmamasına görə bütün günahı Azərbaycanın üzərinə atmağa çalışır. Eyni zamanda Azərbaycan sülh prosesində irəliləmək üçün xoş niyyətini və səmimi istəyini dəfələrlə sübut edib. Çünki Ermənistana sülh sazişi layihəsi, kommunikasiyaların bərpası və dövlət sərhədinin delimitasiyası ilə bağlı müzakirələr aparmağı biz təklif etmişik. "Humanitar böhran"ın yeganə məsuliyyəti Azərbaycanın suveren ərazisində olan separatçıların üzərinə düşür", - o qeyd edib.



E.Əmirbəyov əlavə edib ki, Laçın yolu ilə hər gün Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) avtomobillərinin, təcili yardım maşınlarının, Qarabağın erməni sakinlərinin və bütün lazımi ərzaqları daşıyan digər nəqliyyat vasitələrinin gediş-gəlişinin təşkil edildiyi bir vaxtda Qarabağın "blokada"da olduğunu söyləmək olmaz: "Bundan başqa, Ermənistan və separatçılar vəziyyəti siyasiləşdirərək beynəlxalq ictimaiyyətin diqqətini dalana dirədikləri əsas sülh prosesindən yayındırmaq istəyirlər. Belə ki, onların Ağdam-Xankəndi yolu ilə ərzaq tədarükündən imtina etməsi vəziyyətin humanitar yox, siyasi xarakter daşıdığının sübutudur. Əgər əhalinin humanitar yardıma ehtiyacı olarsa, lakin onlar həyati əhəmiyyətli qərarlardan imtina edirlərsə, o zaman heç kəsə bunun humanitar böhran olduğunu sübut edə bilməz".

# İlham Əliyev türk dövlətlərinin nazirlərini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları - Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev deyib:**

- Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Bu gün Bakıda Türk Dövlətləri Təşkilatının fövqəladə hallar nazirlərinin iclası öz işinə başlayır. Bu, çox önəmli hadisədir. Əminəm ki, iclas çox yaxşı keçəcək, nəticələr də çox uğurlu olacaq. Bildiyiniz kimi, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir. Bildiyimə görə, iclasda, o cümlədən qarşılıqlı yardım haqqında sazişin hazırlanması da nəzərdə tutulmuşdur. Buna böyük ehtiyac var. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.

Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür. Son illər ərzində maddi-texniki bazamızın möhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə bizim müxtəlif bölgələrdə, o cümlədən Türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir. Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik.



Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.



Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir. Təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir. Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq.

Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda, öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

Mən bir daha sizi salamlayıram. Sizə uğurlar, yaxşı nəticələr arzulayıram. Təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına mənim səmimi salamlarımı çatdırın.

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev çıxış edərək dedi:**

- Möhtərəm Prezident, sabahınız xeyir. Hörmətli İlham Heydər oğlu, vaxt tapıb bizi qəbul etdiyiniz üçün Sizə nümayəndə heyəti adından və şəxsən öz adımdan təşəkkürümü bildirmək istəyirəm. Siz də öz çıxışınızda qeyd etdiyiniz kimi, bu, Sizin və dövlət başçılarının təşkilatımıza və fəaliyyətimizə diqqətinin göstəricisidir.

Kubanıçbek Ömüraliyev Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin əhəmiyyətinə toxundu. O, Azərbaycan Prezidentinin Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyi dəstəyi xüsusi qeyd edərək bildirdi:

- Fürsətdən istifadə edərək, bir daha Sizə Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyiniz ardıcıl dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Zati-aliləri, bütün dünyada sürətli dəyişikliklər, həmçinin mühüm hadisələr, qlobal və regional səviyyələrdə çağırışlar türk coğrafiyasında inteqrasiya üzrə əməkdaşlığı daha əhəmiyyətli, xalqlarımızı isə daha yaxın edir. Qardaş türk xalqları arasında münasibətlər böyük strateji əhəmiyyətə və potensiala malikdir. 2023-cü il fevralın 6-da qardaş Türkiyənin ərazisində baş vermiş dağıdıcı zəlzələlər zamanı biz şahidi olduq ki, təkcə dövlətlər deyil, həm də xalqlarımız ayağa qalxdı və qardaş Türkiyəyə görünməmiş həmrəylik nümayiş etdirdi və yardım göstərdi.

Kubanıçbek Ömüraliyev təbii fəlakət və fövqəladə hallarla mübarizədə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səylərini birləşdirməsinin vacibliyinə toxundu. Qonaq Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ilin martında Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün keçirildiyini xatırladaraq həmin tədbirdə vacib qərarların qəbul edildiyini vurğuladı.

**Türkiyənin daxili işlər naziri Ali Yerlikaya çıxış edərək dedi:**

- Hörmətli cənab Prezident, əvvəlcə sıx qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün təşəkkürlərimi bildirirəm. Sizə cənab Prezidentimizin ən səmimi salamlarını gətirmişəm. Bu gün burada - qardaş Azərbaycan torpaqlarında olmaqdan böyük məmnunluq duyuram. Hörmətli Prezidentimizin və Zati-alinizin himayəsi ilə inkişaf edib güclənən əməkdaşlığımızın dünyada tayı-bərabəri yoxdur. Biz də Daxili İşlər Nazirliyi olaraq, Azərbaycanın qurumları ilə əməkdaşlığımızı səmimiyyət və təmənnasızlıq əsasında inşa etmişik. Bu müddətdə keçirdiyimiz görüşləri isə diplomatik təmasdan daha çox qardaşlıq həmrəyliyimizin bir ifadəsi olaraq görürük.

Hörmətli cənab Prezident, icazənizlə, Qəhrəmanmaraş zəlzələlərində Can Azərbaycanımızın uzatdığı yardım əlini hüzurunuzda bir daha minnətdarlıqla yad etmək istəyirəm. Məlum olduğu kimi, çox böyük bir acını geridə qoymağa çalışırıq. Bu dövrdə Zati-alinizin liderliyi ilə Azərbaycanın qardaş köməyi nəcib millətimiz tərəfindən heç vaxt unudulmayacaq. Yardımımıza ilk gələn Azərbaycan olduğu kimi, ən son ayrılan axtarış-xilasetmə heyətləri də yenə Azərbaycanın heyətləri olmuşdur. Bütün maddi və mənəvi dəstəklərini bizə çatdırmaq üçün səfərbər olan azərbaycanlı qardaşlarımıza minnətdarlığımızı nə qədər ifadə etsək azdır.

Türkiyənin daxili işlər naziri təbii fəlakət və fövqəladə halların idarə edilməsi sahəsində həyata keçirdikləri fəaliyyət barədə məlumat verdi, Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlıqdan danışdı və bu əməkdaşlığın hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinə əsaslanaraq daha da gücləndirəcəklərini bildirdi. Qonaq Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada keçirilmiş Fövqəladə Zirvə görüşünün önəmini qeyd edərək dedi:

- Hörmətli cənab Prezident, hüzurunuzda olmaqdan duyduğum məmnuniyyəti bir daha ifadə edir, bu sıx qrafikinizdə bizə vaxt ayırdığınız üçün təşəkkürlərimi bildirirəm. Həmçinin yaxınlaşmaqda olan Qarabağ Zəfərimizin ildönümü münasibətilə qardaş Azərbaycanımızı təbrik edir, şəhidlik zirvəsinə yüksəlmiş bütün azərbaycanlı qardaşlarımızı rəhmət və minnətlə anıram. Sizə ehtiramımı ifadə edirəm, cənab Prezident.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.



## Pənah Hüseynin partiyası qeydə alındı

*Ədliyyə Nazirliyi Azərbaycan Xalq Partiyasını qeydiyyata alıb.*

Bu barədə "Unikal"a açıqlamasında partiyanın sədri Pənah Hüseyn məlumat verib.

Qeyd edək ki, bir neçə gün əvvəl Ədliyyə Nazirliyindən Azərbaycan Xalq Partiyasına rədd cavabı verilmişdi.

*Murad İbrahimli*

## Ədliyyə Nazirliyi Razi Nurullayevə cavab verdi

*Ədliyyə Nazirliyi Milli Cəbhə Partiyasının yenidən təqdim etdiyi üzvlük siyahılarını yoxlayıb.*

"Unikal" xəbər verir ki, bu barədə MCP-nin sədri, deputat Razi Nurullayev məlumat paylaşıb.

O bildirilib ki, nazirlik siyahıları təsdiq edib və partiyanı dövlət qeydiyyatına alıb.

Bundan əvvəl R.Nurullayevin rəhbərlik etdiyi partiyanın Ədliyyə Nazirliyinə təqdim etdiyi üzvlük siyahılarında çatışmazlıqlar aşkar edilmişdi.

## Həbs olunan 3 erməni futbolçu Ermənistana təhvil verildi

*Laçın sərhəd-keçid məntəqəsində saxlanılaraq həbs edilən 3 erməni futbolçu qarşı tərəfə təhvil verilib.*



"Unikal" xəbər verir ki, bu gün onların həbs müddəti başa çatıb. Erməni KİV onların Bakı vaxtı ilə saat 15.30-da Həkəri çayı üzərindəki sərhəd-keçid məntəqəsindən Ermənistan tərəfinə təhvil verilməsi barədə məlumat yayıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun məlumatına görə, inzibati həbs cəzasının icrasından sonra qeyd olunan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması təmin olunmalı idi.

Xatırladaq ki, Azərbaycan bayrağını təhqir edən erməni futbolçuların yaşı, törətdikləri əməli səmimi etiraf etməklə peşman olmaları nəzərə alınıb və cinayət prosessual qanunvericiliyin tələblərinə əməl olunmaqla humanizm prinsipi tətbiq edilərək onların barəsində cinayət təqibinə xitam verilmişdi.

*Ağarza Elçinoğlu*

# "Ermənistanın gələcəkdə dövlət olaraq mövcudluğu sual altındadır"

## Tofiq Zülfüqarov: "Kiminsə gəlib Ermənistandan ötrü bizə qarşı düşmənçilik etməsi inandırıcı deyil"

***Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, son günlər Ermənistan və Rusiya arasında gərginliyin artmasından, regionda hansı dəyişikliklərin ola biləcəyindən, qondarma rejimin Azərbaycanın Qarabağda yaşayan ermənəsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün göndərdiyi humanitar yardımdan imtina etməsindən və s. məsələlərdən danışıb.***

***-Tofiq müəllim, son günlər Ermənistan və Rusiya arasında gərginliyin artması müşahidə olunur. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyanın və bu ölkənin digər rəhbər şəxslərinin açıqlamalarına Rusiya rəsmiləri tərəfindən də cavablar verilib. Bu ölkələr arasındakı gərginlik nə ilə bağlıdır?***

-Ermənistan və Rusiya arasındakı uzaqlaşma prosesi çoxdan başlayıb. Beş il bundan əvvəl də demişdim ki, Rusiya bu bölgədən gedir. Rusiya strateji baxımdan siyasi nüfuzunu saxlamaq üçün bir çox hallarda strategiyanı dəyişdirir. Köhnə üslubda, yəni, hərbi bazalar, hərbi mövcudluq məsələləri artıq ikinci plana çəkilir. Daha aktual, zəmanəyə uyğun iqtisadi əməkdaşlıq, kommunikasiya məsələlərinə üstünlük verirlər. Əslində, Ermənistan Rusiyadan deyil, Rusiya Ermənistandan uzaqlaşır. Ona görə ki, indi Rusiya ilə Türkiyə əməkdaşlığı daha yüksək səviyyədədir. Uzun illər belə bir siyasi şüar var idi ki, Ermənistan Cənubi Qafqazda Rusiyanın forpostudur. Sonra bəzi Rusiya politoloqları bu forpost sözünü dəyişib deyirdilər ki, Ermənistan əslində qulpsuz çamadandır. Bu baxımdan, Ermənistanın anti-Rusiya bəyanatları daha çox onunla bağlıdır ki, artıq Rusiya digər istiqamətdə özü üçün faydalı əlaqələr qurmaq niyyətindədir. Ermənistanın forpost funksiyası Rusiyaya lazım deyil. Nikol Paşinyan demək olar ki, bu prosesləri görüb və buna aid bəyanat verib. Ciddi siyasi təhlilərə diqqət etsək görərik ki, bu proseslər çoxdan başlayıb. Onlar çarəsizlikdən belə bəyanatlar verirlər və hesab edirlər ki, bu siyasi dalğada Qərb Ermənistanda olan təhlükəsizlik boşluğunu dolduracaq. Ermənistanın təhlükəsizlik boşluğu ondan irəli gəlib ki, işğalçı siyasətləri, siyasi ambisiyaları onların real potensialını (iqtisadi, demoqrafik, hərbi) qat-qat üstələyir. Onlar elə siyasət həyata keçirirlər ki, bunu edəcək imkanları yoxdur. Kiməsə arxalanıb, kimdənsə istifadə edib anneksiya siyasətini davam etdirmək istəyirlər. İndi təzə patron axtarışına çıxan Ermənistan köhnə havadarına daş atır.

***-Baş verənlər Qarabağ ətrafında proseslərin mürəkkəb mərhələyə qədəm qoyduğunu deməyə əsas verir. Yaxın illərdə regionda hansı dəyişikliklərin şahidi ola bilərik?***

-Son illər baş verən proseslərə baxsaq görəcəyik ki, bu tendensiya özünü göstərir. Ermənistanın işğalçı anneksiya siyasətinin potensialı özündə deyil. Bu vaxta qədər Ermənistana həm hərbi, həm də siyasi dəstək verən Rusiya idi. Rusiya yenə də dəstək verir, amma ermənilərin istədiyi kimi deyil. Ermənilər elə fikirləşirdilər ki, Rusiya əsgəri gəlib onların yerinə döyüşəcək. Bu baxımdan, onların narazılığı başa düşüləndir və bu özünü göstərir. Ermənilər yenə də reallığa qayıtmaq istəmirlər. Hindistan, Fransa və s. ölkələrə ümid bəsləyirlər. Elə fikirləşirlər ki, kimsə gəlib burada Rusiyanı əvəz edəcək. Başa düşmürlər ki, yeni reallıq var. Regionda Azərbaycan-Türkiyə müttəfiqliyi mövcuddur və indi digər proseslər başlayıb. Türk dövlətlər birliyi əməkdaşlığı günü-gündən güclənir. Təbii ki, buna qarşı çıxanlar, Rusiyanı əvəz etmək üçün bəyanatlar verənlər var. Amma reallığa gələndə kimsə ermənilərin yerinə döyüşməyə hazır deyil. Ona görə də erməni siyasətçilər təşviş içərisindədir. Daim populist, təbliğata əsaslanan hansısa tədbirlər təşkil edirlər. İndi hazırlaşırlar ki, konqresdə hansısa dinləmələr baş verəcək. Konqresdə il ərzində yüzlərlə, minlərlə bu cür dinləmələr olur. Bu o demək deyil ki, ABŞ köklü şəkildə öz siyasətini dəyişəcək. Azərbaycan ABŞ üçün bu bölgədə çox vacib faktordur. Azərbaycan Turan kimi geopolitik reallığın vacib oyunçularından biridir. Kiminsə gəlib Ermənistandan ötrü bizə qarşı düşmənçilik etməsi inandırıcı deyil. Ermənistan siyasi elitası üçün reallığa qayıtmaq əsas məsələlərdən biridir. Onlar düzgün addımlar atmasalar, Ermənistanın gələcəkdə dövlət olaraq mövcudluğu sual altındadır.



***-10 günə yaxındır ki, Bakıdan ermənəsilli sakinlərə ərzaq aparan karvan Ağdam-Xankəndi yolunda gözləyir. Qondarma rejim isə Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir...***

-Baş verən proseslərə lazımi siyasi qiymət verməliyik. Oradakı qondarma rejim birbaşa Ermənistanın işğalçı administrasiyasının qalıqlarıdır. Onların hərbçiləri, "prezidentləri" maaşı Ermənistanın büdcəsindən alırlar və onlar birbaşa oranın məmurlarıdır. Bu hərbi xunta orada yaşayan erməniləri girov saxlayır. Onların seçdiyi siyasi xətt ondan ibarətdir ki, etiraz olaraq hamınız acından ölün. Bu siyasətin uzunmüddətli olması mümkün deyil. İnsanlar da başa düşəcəklər ki, belə çağırış edənlərin özləri heç də aclıq çəkən adama oxşamırlar. Onların sifətinə baxanda bunu görmək olar ki, heç də əziyyət çəkən deyillər. Amma onlar tələb edirlər ki, adi insanlar ailə üzvlərini, uşaqlarını acından öldürsünlər. Gec ya tez orada bölünmə gedəcək. Normal düşüncəli insanlar siyasi hoqqabazlara irad tutacaq və onlara qarşı səslərini qaldıracaqlar. Azərbaycan öz mövqeyini açıq şəkildə bildirib ki, biz orada insanların əziyyət çəkməsini istəmirik. Lazımdırsa, kömək etməyə hazırıq. Biz yardımı ora yollamaqla normal insanlara mesaj göndəririk. Digər tərəfdən beynəlxalq ictimaiyyətə də çox aydın mesaj veririk ki, bu problemləri yaradan işğalçı siyasət həyata keçirən qondarma rejimdir. "Aclıq" deyilən prosesi başlayan Ermənistandır. İrəvandan gələn TIR-lar da göstərir ki, bunun arxasında Ermənistan hökuməti dayanır. Onlar bununla onu göstərir ki, sülh prosesində maraqlı deyillər. Azərbaycan isə buna qarşı istənilən addımları ata bilər və atacaq.

***- Son günlər Ermənistan tərəfi sərhəddə təxribatların sayını artırıb. Necə düşünürsüz daha ciddi toqquşmalar ola bilərmi?***

-Bizim aramızda sərhəd yoxdur. İndiyə qədər sərhəd yox, təmas xətti olub. Təmas xəttinin bu şəkildə yaradılmasının səbəbkarı da Rusiyadır. Hərbi əməliyyatlar gedən vaxtı biz gördük ki, hansısa mövqeləri Rusiya hərbçiləri qoruyur. Həmin yerdən o tərəfi Ermənistan sərhədi kimi göstərirdilər. Əslində isə Ermənistanla Azərbaycan arasında sərhəd yoxdur. Sovet İttifaqı dağılandan sonra 1991-ci ilin sərhədləri bir çox ölkələrdə əsas kimi götürülüb. Amma Ermənistan Almatı deklarasiyasına qol çəkərkən xüsusi bir rəy irəli sürüb. Onlar Dağlıq Qarabağı Ermənistana birləşdirirlər. Yəni, köhnə sovet sərhədlərini ləğv ediblər və yeni sərhədlər bəyan ediblər. Biz görürük ki, Ermənistanın baş naziri sərhədlə bağlı 4 variant vermişdi. Paşinyan müharibədən əvvəl deyirdi ki, "Artsax Ermənistandır". Bu o deməkdir ki, həm Dağlıq Qarabağ, həm də işğal olunmuş ərazilər Ermənistandır. Sonra hakimiyyətə gələndə əlini konstitusiyaya qoyaraq and içib. Orada yazılıb ki, konstitusiya müstəqillik aktı əsasında qəbul olunub. O deməkdir ki, Ermənistanın sərhədləri Qarabağı birləşdirməklə müəyyən olunub. Paşinyan buna da konstitusiya əsasında and içib. Sonra Praqada deyib ki, 1991-ci ilin sərhədlərini tanıyırlar. Sonra məlum oldu ki, onun əsasında iş görmək olmaz. Ona görə ki, Almatıda 91-ci ilin sərhədini tanımayıblar. Amma deyirdi ki, tanımışıq. Sonra deyib ki, 75-ci ilin xəritələri əsasında sərhəd qəbul olunsun. Bunlar öz sərhədlərini deyə bilmirlər. Buna aid Azərbaycanın da öz mövqeyi var. 20-ci ildə Rusiya qüvvələri Azərbaycanı və Ermənistanı işğal edəndən sonra xalqımızın rəyini soruşmadan Zəngəzuru və Göyçə mahalını Ermənistana veriblər. Biz də bu sərhədi qanunsuz sayırıq və tələb etməliyik ki, həmin sərhədlər bərpa olunsun. Sərhəd məsələsi həll də açıqdır. Orada baş verən hadisələr sərhəd toqquşmaları deyil. Oradan təmas xətti keçir. Bu gün Azərbaycan əsgəri öz mövqeyində durur və erməni təxribatlarına cavab verir.

*Anar Kəlbiyev*

# İcra başçılarının ağlasığmaz tender oyunları

## Rayon icra hakimiyyətlərinin keçirdiyi dövlət satınalma müsabiqələrinin nəticələri niyə ləğv olunur?

***Son vaxtlar ayrı-ayrı şəhər və rayon icra hakimiyyətlərinin keçirdiyi çox sayda dövlət satınalma müsabiqəsinin nəticəsi ləğv edilib. Təkcə son 1 ayda bununla bağlı xeyli xəbər yayılıb. Məsələn, bir neçə gün öncə Lerik Rayon İcra Hakimiyyətinin tenderi ləğv edilib. Tender Lerik şəhərinin avtomobil yollarının əsaslı təmiri ilə bağlı elan edilmişdi.***

Lakin müsabiqə zamanı tender təkliflərinin əsas şərtlər toplusuna uyğun olmadığı üzə çıxıb. Bu isə "Dövlət satınalmaları haqqında" Qanuna ziddir. Ona görə də İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tenderin ləğv olunması Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Ağcəbədi Rayon İcra Hakimiyyətinin də tenderini ləğv edib. Tender Ağcabədi şəhəri H.Əliyev parkında, H.Əliyev prospektində və şəhərin digər küçə və prospektlərində abadlıq və təmir işlərinin satın alınması ilə bağlı keçirilirdi.

Bildirilib ki, tenderin ləğv olunma səbəbi "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinin pozulması ilə əlaqədardır.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu günlərdə Oğuz Rayon İcra Hakimiyyətinin də tenderini ləğv edib. Tender Oğuz şəhəri X.Yunusov 87 ünvanında yerləşən ictimai yaşayış binasının əsaslı təmiri işləri üzrə layihə smeta sənədlərinin hazırlanması ilə bağlı elan edilmişdi.



ilə bağlı quruma məktub göndərib. Nəticədə tender ləğv edilib.

Bundan başqa, bir neçə gün öncə Ağstafa Rayon İcra Hakimiyyətinin "Ağstafa rayonunda yolların əsaslı təmiri" ilə bağlı tenderi də ləğv olunub. Səbəb tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayının üçdən az olması, bir az da konkretləşdirsək, yetərli sayın olmamasıdır. Belə ki, Dövlət Satınalmaları haqqında qanunun 11.1-ci maddəsinə görə tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduqda satınalan təşkilat tenderin davamından imtina edir və bu barədə məlumatı tender elan olunduğu mətbuat orqanında 5 bank günü ərzində dərc etdirir və rəsmi internet saytında yerləşdirir.

Bir qədər əvvəl isə İqtisadiyyat

Məlumata görə, tenderin ləğvi "Dövlət satınalmaları haqqında" Qanun pozulması ilə bağlı olub. Bununla bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət olunub. Araşdırmalardan sonra tenderin ləğvi ilə bağlı icra hakimiyyətinə məktub göndərilib.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Aydın görünür ki, yerli icra hakimiyyətləri və onların rəhbərləri tenderlər keçirərkən "Dövlət satınalmaları haqqında" Qanunun tələblərini pozmağı, az qala, adət halına çeviriblər.

Əslində bu, icra başçılarının təcrübəsində adiləşmiş haldır. Biz son illərdə həbs olunan rayon rəhbərləri ilə bağlı istintaq və məhkəmə materiallarından aydın görürük ki, onların kirli qazanclarının əsas mənbələrindən biri məhz dövlət satınalmalarıdır. Belə ki, həmin rayon rəhbərləri keçirdikləri tenderlərdə bir qayda olaraq özlərinə yaxın şirkətləri qalib elan ediblər və bu şirkətlər vasitəsilə büdcə vəsaitlərinin talançılığı ilə məşğul olublar. Ya da qalib şirkətdən onlara ödənilməli olan vəsaitin bir hissəsini rüşvət şəklində geri alıblar.

Xatırladaq ki, 2 il öncə - 2021-ci ilin sentyabrında Prezident İlham Əliyev Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevin Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən bu mövzuya toxunmuşdu. "Əsas infrastruktur layihələrinin başa çatması o demək deyil ki, biz bu maliyyə və maddi dəstəyi kəsəcəyik. Yox, verəcəyik, ancaq məqsədyönlü şəkildə, ancaq bütün qaydaları nəzərə almaq şərti ilə verəcəyik. Bir də ki, həbs edilmiş icra başçıları, - təkcə Cəlilabad, Şəmkir rayonlarından söhbət getmir, - digər rayonlarda da tender prosedurlarını kobudcasına pozurdular. Yəni, dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır", - dövlət başçısı bildirmişdi.

Hələ də bir sıra şəhər və rayonların icra hakimiyyətləri tərəfindən keçirilən satınalma müsabiqələrində çoxsaylı qanun pozuntularına yol verildiyinə dair iddialar, həmçinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən xeyli tenderin nəticəsinin ləğvinə dair xəbərlər oxşar "ənənələrin" bəzi icra başçıları tərəfindən hələ də yaşadıldığını göstərir. Görünür, müəyyən rayon rəhbərləri nə həbsdəki həmkarlarının acı aqibətindən dərs alır, nə də mərkəzi hakimiyyət tərəfindən icra başçılarının qarşısında qoyulmuş öhdəlikləri, tapşırıqları xatırlayırlar. Belədə onların yolunun da dəmir barmaqlıqlar ardına düşməsi qaçılmaz görünür. Yəni, qarşıdakı dövrdə bəzi icra başçılarının da həbs xəbəri ilə qarşılaşsaq, kimsə təəccüblənməməlidir...

*Sənan Mirzə*

# 500-dən çox xarici QHT fəalı Ermənistanın saxta təbliğatını ifşa edən müraciət yaydı

***"Dünyanın 27 ölkəsindən olan bir qrup xarici QHT, vətəndaş cəmiyyəti təmsilçiləri "Dünya Qafqazda sülh üçün" ("World for Peace in Caucasus") adlı beynəlxalq kampaniya başladıb. Kampaniya yeni elan olunmasına baxmayaq, ciddi rezonans və dəstək qazanıb, artıq dünyanın müxtəlif ölkələrindən müraciətə qoşulan vətəndaş cəmiyyəti təmsilçilərinin sayı 500-ü keçib.***

"Unikal" AzərTac-a istinadən xəbər verir ki, "Jotform" beynəlxalq platformasında yerləşdirilən müraciətdə Laçın yolunun guya bağlı olması barədə yayılmış dezinformasiyaların, bu istiqamətdə aparılan qərəzli kampaniyaların Cənubi Qafqazda sülh quruculuğu prosesinə zərbə vurduğu bildirilir, bundan dərin narahatlıq ifadə edilir.

Müraciətdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə tövsiyə edilir ki, Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatlarına, onların siyasi manipulyasiyalarına uymasınlar, Ağdam-Xankəndi yolu sülh üçün açılsın.

Müraciətə qoşulanlar hesab edir ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinləri Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin sülh naminə müsbət mesajlarını düzgün qiymətləndirməyi bacarmalıdır. Təəssüf hissi ilə qeyd edilir ki, Qızıl Aypara Cəmiyyətinin yardım gətirən yük maşınları yaradılan süni manea nəticəsində Xankəndi istiqamətində hərəkətinə davam edə bilmir. Kampaniya feyk məlumatlar əsasında guya Qarabağda yaşayan erməni sakinlərin "humanitar böhran"la üzləşməsi barədə Azərbaycan dövlətinin ünvanına saxta ittihamlar irəli sürənləri də qınayır və onları reallıqları görməyə çağırır.

Ermənistanın Laçın yolu ətrafında saxta təbliğatını ifşa edən və reinteqrasiyanı alqışlayan bu müraciətə qoşulmaq istəyən xarici QHT təmsilçiləri onlayn formada bu keçid vasitəsilə bəyanatı imzalamaqla dəstəyini ifadə edir:

**https://form.jotform.com/232422927546459**
**Kampaniyanın sosial media səhifələri də yaradılıb:**
**X: https://x.com/wforcaucasus**
**Instaqram:**
**https://www.instagram.com/worldforpeaceincaucasus/**
**Teleqram: https://t.me/worldforpeaceincaucasus.**

# BQXK 10 pasienti Qarabağdan İrəvana apardı

***Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) Qarabağdan 10 nəfəri müalicə üçün Ermənistana aparıb.***

"Unikal" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə BQXK-nin Ermənistandakı nümayəndəliyi məlumat yayıb.

Bildirilib ki, əvvəllər müalicə olunmaq üçün İrəvana göndərilənlərin müşayiətçiləri ilə birlikdə Xankəndiyə qaytarılması planlaşdırılır.

# Düşmən Kəlbəcər və Ağdam istiqamətində təxribat törədib

***Sentyabrın 7-si saat 10:05 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Bundan əlavə, sentyabrın 7-si saat 07:50 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.



## Azərbaycan nümayəndə heyəti Türkiyədə beynəlxalq tədbirdə iştirak edir

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dəstəyi ilə Türkiyənin İstanbul şəhərində 14-cü beynəlxalq LANDNET tədbiri keçirilir.***

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycan nümayəndə heyətini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin əməkdaşı Teyyub Məmmədli, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev, Nazirliyin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firidun Tağıyev və Hüquq və icra intizamı şöbəsinin əməkdaşı Mahmud Abdullayev təmsil edir.

14-cü beynəlxalq LANDNET tədbirində torpaqların konsolidasiyası çərçivəsində müxtəlif ölkələrin tətbiq etdikləri islahatlarla bağlı təqdimatlar keçirilib. Tədbirdə çıxış edən mütəxəssislər torpaqların konsolidasiya edilməsi, kənd təsərrüfatı infrastrukturunun qurulması və torpaq bazarının inkişaf etdirilməsində torpaq bankçılığının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Qeyd olunub ki, torpaq bankçlığı müxtəlif səbəblərdən tərk edilmiş və ya uzun müddət istifadə edilməyən torpaqların təsərrüfat dövriyyəsinə qaytarılmasında müstəsna rola malikdir.

Tədbirdə FAO-nun Azərbaycan, Türkiyə və Özbəkistan Respublikalarının ortaq regional layihəsi - "Torpaqların tərk olunması probleminin həlli və torpaqların konsolidasiyası prosedurlarının təkmilləşdirilməsi məqsədilə kənd təsərrüfatı torpaqları bazarının inkişaf etdirilməsi" layihəsi çərçivəsində görüləcək işlər də müzakirə olunub. Tədbirin çərçivəsində Türkiyənin Bursa şəhəri ərazisində torpaqların konsolidasiyası layihəsinin tətbiq edildiyi sahəyə səfər təşkil olunub. Məqsəd sahə səfəri zamanı iştirakçılara torpaqların konsolidasiyasının kənd təsərrüfatının və kənd yerlərinin inkişafına göstərdiyi təsirlərlə əyani tanış olmaqdır.

## Kəlbəcərə ilk köç 2024-də başlayacaq

***Kəlbəcər şəhərinə bütövlükdə tikiləcək evlərə 2024-cü ildə ilk olaraq 5 000 nəfərdən artıq, kənd və qəsəbələrə isə 8 000-ə yaxın, ümumilikdə 13 000-ə yaxın insanın köçürülməsi planlaşdırılır.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov Kəlbəcərdə keçirilən Şəhərsalma İşçi Qrupunun iclası çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Tədbirlər Planına əsasən, əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi fəaliyyət istiqaməti üzrə Kəlbəcər rayonunda 2026-cı ilədək 3 500 evin (2000 fərdi yaşayış evinin və 1 500 mənzilin) tikilərək istismara verilməsi nəzərdə tutulur.

"İllər üzrə bölgüyə gəlincə, 2024-cü ildə 1 115 evin, 2025-ci ildə 725 evin, 2026-cı ildə 1 610 evin inşası həyata keçiriləcək", - N.Hümmətov bildirib.

# Vahid Ələkbərovun bankından qəribə "rekord"

### "Yelo Bank"ın dövlət qurumlarına, şirkətlərə, vətəndaşlara qarşı məhkəmə iddialarının sayı-hesabı itib - İnanılmaz rəqəmlər...

***"Yelo Bank" ASC İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Milli Gəlirlər Baş İdarəsinə qarşı məhkəmə iddiası qaldırıb. Bildirilir ki, məhkəmə iddiasına noyabr ayının 1-i tarixində Bakı Apellyasiya Məhkəməsinin hakimi Pərviz Hüseynovun sədrliyi ilə baxılacaq(yenisabah.com).***

Qaldırılan iddia vergi məsələləri üzrə mübahisələrlə bağlıdır.

Qeyd edək ki, 378 milyon manat nizamnamə kapitalı olan "Yelo Bank" ASC (VÖEN -9900014901) 1994-cü ildən fəaliyyət göstərir. Əvvəlcə "Ülpər" kommersiya bankı kimi fəaliyyətə başlayıb. Daha sonra 2002-ci ildə rebrendinq edərək "Nikoil Bank" adlandırılıb. 2019-cu ildən isə "Yelo Bank" adlanır. Bu bankın Rusiyada yaşayan Azərbaycan əsilli milyarder, "Lukoil" şirkətinin sahibi Vahid Ələkbərova məxsusdur. Belə ki, bankın ana şirkəti 2022-ci ilin mart ayına qədər "Topaz İnvestment Limited" QSC olub. Banka 2022-ci ilin mart ayına qədər birbaşa şəkildə fiziki şəxs Vahid Ələkbərov nəzarət edib. 2022-ci ilin mart ayından etibarən isə ona birbaşa olaraq fiziki şəxs Marina Kulişova nəzarət edir. Lakin sözügedən ASC azərbaycanlı iş adamının dolayı şəkildə nəzarətində qalır.

Ələkbərovun bankının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Milli Gəlirlər Baş İdarəsinə qarşı iddiasının təfərrüatları bəlli deyil. Lakin bu da bir həqiqətdir ki, son vaxtlar "Yelo Bank"la bağlı məhkəmə xəbərləri xeyli artıb. Məsələn, bir müddət öncə sözügedən ASC "Fermer İvanovka" MMC-yə qarşı məhkəmə iddiası qaldırmışdı. Həmin vaxt bildirilirdi ki, bank şirkətə qarşı kredit müqaviləsi üzrə mübahisələr barədə tələb irəli sürüb.

İki ay öncə isə Vahid Ələkbərovun



bankı türk şirkətinin Azərbaycandakı filialını və sahibini məhkəməyə vermişdi. Belə ki, "Yelo Bank" məhkəmədə "OKR Mühendislik İnşaat Taahhüt Elektrik Enerji Makine Sanayi Ticaret Limited" şirkətinin Azərbaycan filialı və Kılıc Hasanla bağlı iddia qaldırmışdı.

Türkiyə şirkətinin ölkəmizdəki filialına qarşı başladılan prosesdə işin mahiyyəti müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr və kredit müqaviləsi üzrə yaranmış mübahisələrdir.

Bankın iddia qaldırdığı digər şirkətlərdən bəziləri aşağıdakılardır:

- "Bumerang Rent A Car" MMC (kredit müqaviləsi üzrə tələb);
- "İnternational Travel and Tourism" MMC (kredit müqaviləsi üzrə mübahisələr barədə tələb);
- "Enerqokomplekt" MMC (kredit müqaviləsi üzrə mübahisələr barədə tələb) və s.

Yuxarıda da yazmışdıq ki, "Yelo Bank"la bağlı məhkəmə xəbərləri xeyli artıb. Təsadüfi deyil ki, iyun ayında bu bankın qarşıdakı 30 gün ərzində vətəndaşlar, şirkət və dövlət qurumları ilə 132 məhkəmə çəkişməsinin olduğu açıqlanmışdı ki, bu da rekord göstərici sayıla bilər.

"Yelo Bank"ın bu ay isə məhkəmədə təkcə vətəndaşlarla 171 çəkişməsi var. Onlardan 10-u vətəndaşların evdən çıxarılması üçün qaldırılmış iddialardır.

Məhkəmədə bankın iddiası təmin olunacağı təqdirdə yuxarıda adı hallanan şəxslər və onların ailə üzvləri yaşadıqları mənzildən çıxarılacaqlar. Bu isə təkcə 10 ailənin deyil, onlarla şəxsin evsiz qalması deməkdir.

Azərbaycanlı məşhur iş adamının bankının bu qədər məhkəmə çəkişməsi irəli sürülən iddiaların məzmunundan asılı olmayaraq maraq doğurur və suallar yaradır.

Sonda onu da qeyd edək ki, "Yelo Bank" ASC 2022-ci ili 5 milyon 228 min manat xalis mənfəət ilə başa vurub. Bank 2021-ci ili 11 milyon 733 min manat xalis mənfəət ilə bağlamşdı. Beləliklə, Vahid Ələkbərovun bankının xalis mənfəəti 2021-ci illə müqayisədə 2022-ci ildə 2,2 dəfə və ya 6 milyon 505 min manat azalıb.

O da maraqlıdır ki, ötən il "Yelo Bank"ın xərcləri gəlirlərinin 99%-dən çoxunu sildiyindən əməliyyat mənfəəti cəmi 673 min manat təşkil etmişdi. Və yalnız mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlardan azad olmuş 4 milyon 555 min manatın hesabına "Yelo Bank"ın mənfəəti 5 milyon 228 min manata yüksəlmişdi.

Belə görünür, bank bir yandan saysız-hesabsız məhkəmə iddialarının, digər tərəfdən isə yüksək xərclərin cənginədədir.

***Toğrul Əliyev***

# Qidaların çatdırılması zamanı temperatura və vaxta necə nəzarət edilməlidir? - cavab

***Qida məhsullarının istehlakçılara çatdırılması zamanı temperatur nəzarətdə saxlanılmalıdır. Bunu xarici ölkələrin təcrübəsi də təsdiq edir. Belə ki, məhsulların xarab olmaması və ya keyfiyyətini itirməməsi üçün temperatur rejiminə əməl olunmalıdır.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən bildirilib.

Qeyd edilib ki, çatdırılma zamanı tez xarab olan soyuq məhsulların 5▪C və ya daha aşağı temperaturda, istehlaka hazır isti yeməklərin isə 60▪C və daha yuxarı temperaturda qalması təmin edilməlidir:

"Eyni zamanda, çatdırılma avadanlığı ətraf mühitin temperaturuna nəzarət mexanizmi ilə təmin olunmayıbsa, qida məhsullarını çatdıran şəxslər qida təhlükəsizliyi ilə bağlı bütün problem və təhlükələri nəzərə almalıdırlar.

Həmçinin, qidalar çatdırılma xidməti tərəfindən götürülənədək və çatdırılmadan əvvəl məhsulların hazırlandığı müəssisə tərəfindən müvafiq temperaturda saxlanılmalıdır. Bunun üçün qida istehsalı müəssisələrində temperaturun monitorinqi prosesi həyata keçirilməlidir.

Bundan əlavə, qida məhsullarının çatdırılması zamanı vaxta nəzarət prosesinə də ciddi əməl edilməlidir. Belə ki, tez xarab olan məhsulların müvafiq temperaturda qalmasını təmin etmək üçün daha uzun çatdırılma müddətləri, qida birbaşa istehlakçılara göndərilmədiyi hallarda isə əlavə nəzarət tədbirləri nəzərdən keçirilməlidir".

Qeyd edilib ki, daşınma və çatdırılma xidmətləri tərəfindən sifarişlərin istehlakçılara təhlükəsiz çatdırılmasını təmin etmək üçün qida məhsullarını çatdıran şəxslərə təlimatlar verilməlidir:



"Həmçinin, daşınma və çatdırılma xidmətləri, qidaların istehlakçılara çatdırılmasını həyata keçirən şəxslər və qida müəssisələri emal, daşınma və çatdırılma zamanı xəstəliklərə səbəb ola biləcək orqanizmlərin çoxalmasının qarşısını almaqdan ötrü müvafiq prosedurlar hazırlamaq üçün birgə işləməlidir".

# Mirzə Əliyevlə bağlı milyonlarla manatlıq şübhə

## Aqrar Xidmətlər Agentliyinin keçmiş sədrinin vəzifəsindən niyə azad edildiyi məlum oldu

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində ciddi nöqsanlar aşkarladığı açıqlandı. Bununla bağlı qurumun auditi nəticələrinə dair hesabatından məlum olub.***

Məsələn, aydınlaşıb ki, Agentliyin tabeliyində olan rayon (şəhər) baytarlıq idarələrinin 2021-ci ilin son aylarından Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinə birləşdirilməsinə baxmayaraq 66 regional baytarlıq və Dəmiryol Baytarlıq idarələrinin 2021-ci ilin əvvəlinə balansında qalmış 17,7 milyon manat dəyərində aktivlərin, eləcə də dəyəri 1,9 milyon manata bərabər olan müvafiq əmlakların auditin keçirildiyi müddətin sonunadək aidiyyəti üzrə təhvil verilməsi təmin edilməyib.

Eyni zamanda audit zamanı Agentlik tərəfindən dövlət büdcəsinə qaytarılmaq şərtilə istifadə olunmasına razılıq verilmiş vəsaitlərin qaytarılmasının təmin edilmədiyi aşkarlanıb. Belə ki, "İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi" layihəsinin revolver fondunda sərbəst qalan vəsaitin sonradan dövlət büdcəsinə qaytarılmaq şərtilə istifadə olunmasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin etiraz etmədiyinə dair müvafiq dərkənarına əsasən açılmış maliyyələşmə hesabına xərclənmiş 2,7 milyon manat məbləğində vəsaitin müvafiq (dövlət) büdcə hesabatlılığında əks etdirilməsi, eyni zamanda qaytarılması, eləcə də qaytarılmaq şərtilə maliyyələşdirilmiş həmin vəsaitin maliyyə (mühasibat) hesabatlarında göstərilməsi təmin edilməyib.

Hesablama Palatasının Agentlikdə apardığı auditin nəticələrinə dair açıqladığı məlumatda həmçinin Epizootiya əleyhinə profilaktik və diaqnostik Tədbirlər Planlarının icrasında problemlərin mövcud olduğu deyilib. Bundan başqa, audit yoxlaması nəticəsində Palata xüsusi təhlükəli xəstəliklərə qarşı baytarlıq preparatlarının uçotunda uyğunsuzluqlara rast gəlib. Belə ki, xüsusi təhlükəli xəstəliklərə qarşı baytarlıq preparatlarının ehtiyat hədləri düzgün müəyyən edilməmiş, ehtiyatların uçotu intizamsız şəkildə aparılmaqla vaksinlərin əsasən faktiki sərfiyyata uyğun deyil, regional baytarlıq idarələrinə təhvil-təslim olunduğu zaman (yəni, faktiki sərf olunmadan) uçotdan silinməsinə yol verilmiş, maliyyə uçotunda əks etdirilmədiyi halda, auditin gedişatında regional baytarlıq idarələrində faktiki olaraq 1,4 milyon manat dəyərində istifadə edilməmiş vaksin qalığının mövcudluğu aşkarlanıb.

Həmçinin zəruri ilkin rəsmiləşdirmə aparılmadan, o cümlədən torpaq sahəsinin mülkiyyət (və ya istifadə) mənsubiyyəti, dəqiq ünvanı əks etdirilmədən, torpaq və ya təsərrüfat sahibinin və ya istifadəçisinin (fermerin) imzası ilə təsdiqlənmiş hər-hansı sənəd əlavə edilmədən, sifarişli əsaslar üzrə ikitərəfli (qarşılıqlı) münasibətlərin şərtlərini tənzimləyən hər-hansı təsdiqedici sənəd olmadan (debitor və kreditor dövriyyələr və borclar üzrə uçot aparılmadan) yalnız birtərəfli qaydada aktlar tərtib edilərək (bəzi hallarda regional icra hakimiyyətlərinin və ya bələdiyyələrin nümayəndələri qeyd olunaraq formal təsdiqlənməklə) müxtəlif məzmunlu tədbirlərin icrası kimi ümumilikdə 2,1 milyon manat dəyərində pestisidlərin, dezinfeksiya və dezinseksiya məhlullarının uçotdan silinməsinə yol verilib ki, bu da eyni zamanda büdcədənkənar daxilolma potensialının tam rəsmiləşdirilməməsi risklərinin yüksək olduğunu deməyə əsas verib.

Xatırladaq ki, Aqrar Xidmətlər Agentliyinin son sədri Mirzə Əliyev olub. "Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, o bu ilin əvvəlində, daha dəqiq desək, yanvar ayında öz istəyi ilə vəzifəsindən azad edilib. Həmin vaxtdan sədr postuna təyinat gerçəkləşməyib. Belə ki, bu vəzifənin icrası müvəqqəti olaraq Cəfər Məhərrəmova tapşırılıb.

Yeri gəlmişkən, ilk yayılan məlumatda M.Əliyevin vəzifədən azad edildiyini iş başında öyrəndiyi deyilirdi. Lakin sonradan həmin məlumt təsdiqini tapmayıb və onun öz istəyi ilə postundan uzaqlaşdırıldığı açıqlanıb.



Bəzi iddialara görə, M.Əliyevin məhz öz istəyi ilə vəzifədən uzaqlaşması təsadüfi deyil. Belə ki, adıçəkilən Agentliyin fəaliyyəti ilə bağlı son vaxtlar onsuz da ciddi narazılıqlar vardı. Hələ ötən ilin sonlarından etibarən adıçəkilən qurumda yoxlamaların aparıla biləcəyi ilə bağlı söz-söhbətlər yayılıbmış. Keçmiş sədrin məhz həmin söz-söhbətlər fonunda postundan getmək istəməsi maraq doğurmaya bilməz. Bir çoxları onun yoxlamalar nəticəsində ciddi nöqsanlar aşkarlanacağını yaxşı bildiyi üçün işdən getdiyini düşünür.

Hesablama Palatasının audit yoxlamasının nəticələri həmin ehtimalı qüvvətləndirir. Palatanın bununla bağlı hesabatından aydın görünür ki, M.Əliyev işinin öhdəsindən layiqincə gələ bilməyib və onun fəaliyyəti dövründə Aqrar Xidmətlər Agentliyində kifayət qədər ciddi nöqsanlara yol verilib.

Onu da deyək ki, Aqrar Xidmətlər Agentliyi 2019-cu ildə Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında yaradılıb. Qurum ölkədə heyvan və bitki sağlamlığı, seleksiya nailiyyətləri, toxumçuluq, nəqliyyat vasitələri və digər kənd təsərrüfatı texnikası ilə bağlı dövlət xidmətlərinin təşkilini, habelə seleksiya nailiyyətləri, toxumçuluq və kənd təsərrüfatı texnikası sahələrində dövlət nəzarətini həyata keçirir.

Mirzə Əliyev isə 2020-ci ildən sözügedən Agentliyin sədri vəzifəsini icra edib və bu postda cəmi 2 il qalıb. "Niyə bu qədər az" sualının cavabını isə, yuxarıda da vurğuladığımız kimi, Hesablama Palatasının keçirdiyi audit yoxlamasının nəticələrində axtarmaq lazımdır.

*Sənan Mirzə*



# Nazirdən zəlzələ ilə bağlı açıqlama

***"Son illər iqlim dəyişikliyi nəticəsində daşqınlar, sellərin sayı çoxalıb. Bu gün Azərbaycanda da iqlim dəyişikliyi özünü büruzə verir".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov bildirib.

O deyib ki, zəlzələ hər zaman olur və baş verdiyi vaxt bilinmir: "Sadəcə, fəsadlarının az olması üçün işlər aparılır. 2000-ci ildə Azərbaycanda baş verən zəlzələdən sonra binaların dayanıqlılığı yoxlanılıb və proses hər zaman davam edir".

# Səhiyyə Nazirliyində görüş keçirildi

***Azərbaycan Səhiyyə Nazirliyində Pakistanın Rifah Beynəlxalq Universitetinin (RIU) rektoru Qulam Abbas Miananın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev iki qardaş ölkə arasında bütün sahələrdə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb.

Səhiyyə siyasəti və ictimai səhiyyə sahəsində əməkdaşlıq məsələlərinə toxunan Teymur Musayev qeyd edib ki, bu istiqamətdə də qarşılıqlı fəaliyyət beynəlxalq müstəvidə - Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı səhiyyə nazirlərinin əməkdaşlığı çərçivəsində həyata keçirilir: "Təhsil sahəsində də ikitərəfli əlaqələr dinamik inkişaf edir və pakistanlı tələbələrin ali tibb təhsili alması üçün Azərbaycanda bütün lazımi şərait yaradılıb".

Teymur Musayev həmçinin Azərbaycan Tibb Universitetinin Pakistanın Rifah Beynəlxalq Universiteti ilə fəal əməkdaşlıq etdiyini qeyd edib. Onun sözlərinə görə, bu ilin oktyabrında Bakıda iki universitetin birgə təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrindən olan mütəxəssisləri vahid platformada birləşdirən Tibb təhsili üzrə beynəlxalq konfrans da baş tutacaq.

Çıxışının sonunda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə əmin olduğunu bildirib.

Öz növbəsində Qulam Abbas Miana vurğuladı ki, Azərbaycan Pakistan xalqının qəlbində xüsusi yeri olan ölkədir. RIU-nun rektoru bildirdi ki, ölkələrimiz arasında səhiyyə sahəsində sıx əməkdaşlıq əlaqələri mövcuddur.

Qulam Abbas Miana Tibb təhsili üzrə ilk beynəlxalq konfransın (International Conference on Medical Education - ICME) 2009-cu ildə Pakistanın paytaxtı İslamabadda baş tutduğunu qeyd edib: "ICME konfransının əsas məqsədi tibb təhsili üzrə ekspert və alimləri bir araya gətirməklə bu sahədəki son yeniliklərin müzakirəsi, təcrübə mübadiləsinin aparılması və bu sahədə beynəlxalq platforma yaratmaqdır".

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin perspektivləri də müzakirə edilib.



# "Bravo"ya silahlı hücumla bağlı 6 nəfər cinayət məsuliyyətinə cəlb edilib

***Xəbər verildiyi kimi, martın 4-də qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən paytaxtın Xətai rayonu ərazisində yerləşən “Bravo” hipermarketinə edilən silahlı basqın nəticəsində xidməti vəzifəsini yerinə yetirərək orada quraşdırılmış və “Unibank Kommersiya Bankı” ASC-yə məxsus bankomata pul vəsaitlərini yerləşdirən Samir Şaydayevə ağır xəsarət yetirilməsi, onun mühafizəsini təşkil edən Rüfət Həşimovun isə öldürülməsi, eləcə də külli miqdarda pul vəsaitinin ələ keçirilməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işinin istintaqı tamamlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Cinayət işi üzrə toplanmış mötəbər sübutlar əsasında 6 nəfər - 1 şəxs qabaqcadan əlbir olan bir qrup şəxs halında və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən şəxsi qəsdən öldürmə və öldürməyə cəhd etməyə görə, 3 şəxs eyni əməllərinin törədilməsinə köməkliyə görə, 1 şəxs qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah hazırlamağa köməkliyə görə, 1 şəxs isə bu cinayət əməlini törətməyə təhrik etməyə görə cinayət məsuliyyətinə cəlb edilib.

Belə ki, cinayəti icra etmiş Dəyanət Qudrətova Cinayət Məcəlləsinin 120.2.1, 120.2.3, 120.2.11 (qabaqcadan əlbir olan bir qrup şəxs halında və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən şəxsi qəsdən öldürmə), 29, 120.2.1, 29, 120.2.3, 29, 120.2.7, 29, 120.2.11 (qabaqcadan əlbir olan bir qrup şəxs halında, ümumi təhlükəli üsulla və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən iki şəxsi qəsdən öldürməyə cəhd) 181.3.2 (sağlamlığa ağır zərər vurmaqla quldurluq), 228.2.1, (qanunsuz olaraq odlu silah, onun komplekt hissələri və döyüş sursatını əldə etmə, daşıma və gəzdirmə) 229.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah hazırlama) və digər maddələri, cinayətin törədilməsində köməkçilər - Azər Məmmədov, İbrahim İbrahimov və Səbuhi Qurbanova həmin Məcəllənin 32.5, 120.2.1, 32.5, 120.2.3, 32.5, 120.2.11, 32.5, 29, 120.2.1, 32.5, 29, 120.2.3, 32.5, 29, 120.2.11, 32.5, 29, 120.2.7, 32.5, 181.3.2, 228.2.1, 229.2.1 və digər maddələri, cinayətin törədilməsində köməkçi - Rövşən İsmayılova həmin Məcəllənin 228.2.1 və 32.5, 229.2.1-ci, cinayətin törədilməsində təhrikçi Babək İsgəndərova isə qeyd olunan Məcəllənin 228.2.1 və 32.3, 229.2.1-ci maddələri ilə ittiham elan edilib.

Həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində cinayətin törədilməsində iştirak edən Ruhlan İsmayılov tutularkən polis əməkdaşlarına qarşı silahlı müqavimət göstərdiyi üçün zərərsizləşdirilib.

Ölmüş təqsirləndirilən şəxs Ruhlan İsmayılovun qeyd edilən cinayətdə təqsiri istintaq zamanı tam sübuta yetirilmiş olsa da, onun barəsində cinayət yeni xarakterli xüsusatlar aşkar edildiyinə görə iş materiallarından barəsində cinayət işi ayrılaraq istintaqı davam etdirilir.

Cinayətin törədilməsində istifadə edilən AKS Lancaster-03” markalı yivsiz ov tüfəngi, “Makarov” tipli tapança, həmçinin təqsirləndirilən şəxslərin yaşadığı ünvandan “Minta37” markalı tapança, çoxsaylı döyüş sursatları, “Unibank Kommersiya Bankı” ASC-yə məxsus 16 min 835 manat və 20 min 100 ABŞ dolları məbləğində pul vəsaitləri aşkar edilərək götürülüb.

Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Məmurların soyğunçu "restoran biznesi"nin şok pərdəarxası

## Bahalı və özünü toxunulmaz sayan restoranlarda müştəriləri necə qarət edirlər?



***Son vaxtlar başda paytaxt Bakı olmaqla, ölkənin turizm əhəmiyyətli bölgələrində fəaliyyət göstərən restoranlarında hətta adi çaya belə fantastik qiymət qoyulması və vətəndaşların faktiki olaraq soyulması ilə bağlı şikayətlər, iddialar çoxalıb. Bundan başqa, həmin obyektlərdə bəzən hətta 25 faizə çatan xidmət haqqı tələbi də istehlakçıların haqlı narazılığına səbəb olub. Bu məbləğin ofisiantlar üçün istənildiyi deyilsə də, reallıq başqadır - həmin “xidmət haqqı” elə restoran sahiblərinin öz cibinə gedir.***

Ümumiyyətlə, özlərini lüks adlandıran və kimlərinsə himayədarlığına arxayın olub qanunvericiliyin tələblərini pozmaqda heç bir problem görməyən bir sıra məşhur restoranların müştərilərini, az qala, qarət etməsi üçün ”icad” elədikləri üsulların sırası hər gün genişlənir. Məsələn, bu yaxınlarda “MADO” adlı restoranlar şəbəkəsinin artıq bir müddətdir ki, müştərilərinə mobil telefonlarına enerji yığmaq üçün ödəniş əsasında Powerbanklar təqdim etdiyi açıqlanmışdı. Yerli KİV-in yazdığına görə, qəribəsi odur ki, “MADO”-da Powerbankdan istifadə edən müştəridən təkcə həmin anda pul tutulmur, restoranlar şəbəkəsinin qurduğu və insanların başına açdığı oyun nəticəsində davamlı olaraq vətəndaşın kart hesabından Powerbankdan istifadə haqqı tutulur.

Elə müğənni və bəstəkar ifaçı Çilənay Hüseynova da belə bir problemlə üzləşdiyini mətbuta açıqlamışdı. O bildirmişdi ki, aprel ayında sözügedən restoranlar şəbəkəsində olarkən Powerbankdan istifadə edib və buna görə 5 gün ard-arda onun kartından 3 AZN çıxılıb. Sitat: ”Həmin hadisənin üzərindən bir neçə ay keçib. Ancaq dəfələrlə kartımdan pul tutulur. Kartımda 30 AZN olduğu halda, bu gün baxdım ki, 15 manat qalıb. Banka əlaqə saxladıqda məndən Powerbank əməliyyatı üçün pul tutulduğunu dedilər”.

Bir sözlə, əksəriyyəti hansısa vəzifəli şəxsin bu və ya digər şəkildə himayəsində olan, hətta bəzilərinin hansısa məmura birbaşa bağlılığı barədə iddialar dolaşan bəzi məşhur restoranlarla bağlı istehlakçı şikayətlərinin nə sayı var, nə hesabı... Ən əsası isə belə restoranların öz müştərilərini soymaq üçün yeni metodlar fikirləşib-tapmaq baxımından təxəyyülləri kifayət qədər güclüdür.

Bu günlərdə mövzu ilə bağlı yerli mətbuata açıqlamasında “Azad İstehlakçılar” Birliyinin sədri Eyyub Hüseynov da maraqlı detallara toxunmuşdu. O, açıq şəkildə bildirmişdi ki, bir sıra restoranlar mövcudluğuna görə borclu olduqları müştərilərdən daha çox pul “qoparmaq” üçün dəridən-qabıqdan çıxırlar. Sitat: ”Bu əcaib forma Azərbaycanda 5 ilə yaxındır tətbiq olunur. Son illər daha böyük vüsət alıb. Hətta hökümətin biznes qurmaq üçün yaratdığı rahat, toxunulmaz şəraitdən istifadə edib “servis haqqı”nı kassa çekinə də salırlar. Yəni hökümətə deyirlər ki, “biz alırıq, istehlakçını soyuruq, ancaq vergi veririk deyə, bizimlə heç kəsin işi olmasın”.

Ekspert xatırlatmışdı ki, ölkədə “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanun mövcuddur. Qanun 1995- ci ildə qəbul olunub. Baxmayaraq ki, bunu icra etməyə cavabdeh olan dövlət orqanları öz işlərinin öhdəsindən layiqincə gəlmirlər. Sitat: ”Həmin dövlət orqanları istehlakçıların hesabına maaş alır. Bu vəziyyətdən sui-istifadə edən biznes qurumları 25 faizə qədər “servis haqqı”tələb edirlər. Dünyada “çay pulu” deyilən bir anlayış var. “Servis haqqın”dan fərqli olaraq, bu istehlakçıların özü tərəfindən könüllü xidmət göstərənə verilən bir məbləğdir. Məsələn, Kanadada müştərilər restoranda ofisanta 20 faizə qədər “çay pulu” verilir. Bizdən fərqli olaraq, bunu biznes sahibinə vermirlər. Əgər yaxşı xidmət göstərilərsə, daha yaxşı pul verərlər”.

Birlik sədri vurğulayıb ki, restoran sahibləri istehlakçılara “yeriyən kaşelok” kimi baxırlar. Bu isə yol verilməzdir.

Ekspert bununla bağlı Nazirlər Kabinetinə çağırış da edib. O deyib ki, biznes qurumları üçün qaydalar qəbul edilməlidir. Ümumiyyətlə biznes qurumları hansısa bir prinsiplə işləməlidir. Bu məsələlər Azərbaycandan götürülməlidir. Sitat: “Məsələn, komplekt çay vermək ənənəsi... Bir stəkan çaya, 50 manat istəyirlər. Əgər mürəbbələri götürmürsənsə, çay vermirlər. Bu, Azərbaycan turizim siyasətinə zərbədir. Tezliklə Nazirlər Kabineti bir qərar qəbul etməli və bunun qarşısı alınmalıdır”.

Göründüyü kimi, ölkədə restoranlarla bağlı acınacaqlı vəziyyət hökm sürür. Xüsusilə hansısa ”güclü əl”in himayəsinə, ya da hansısa məmurla bağlılığına güvənib özünü toxunulmaz sayan belə obyektlər özlərini bir çox hallarda qanunların belə üstündə görürlər. Aidiyyatı qurumlar bu acınacaqlı mənzərəni aradan qaldırmaq üçün real addımlar atmadığı təqdirdə restoran sahibləri müştəriləri soymaq üçün başqa yollara əl atacağının da şahidi olacağıq...

***Sənan Mirzə***

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ombudsmanın hesabatı dünyaya çatdırılmalıdır-Əhməd Şahidov

***Vətən müharibəsi zamanı qazandığımız qələbə təkcə bizi öz torpaqlarımıza qovuşdurmadı, Birinci Qarabağ müharibəsindən sonra illərdir gözləri yolda atana, bacı-qardaş, övlad yolu gözləyən insanların həsrətinə son qoydu. Onların 30 ildən sonra gözləri yollardan yığılmış oldu. İtkin kimi qeydiyyata alınmış şəxslərin çoxunun ermənilər tərəfindən qətlə yetirilərək kütləvi şəkildə torpağa gömüldüyü üzə çıxdı.***

Bugünədək Kəlbəcər rayonunun Başlıbel, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Ağdam rayonunun Sarıcalı, Füzuli rayonunun Seyidəhmədli kəndlərində və adıçəkilən rayonların digər yaşayış məntəqələrində aşkarlanmış bu cür məzarlıqlar bunun danılmaz sübutudr. Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlılarla bağlı hazırladığı hesabatda da bu məqam öz yerini tapıb. Hesabatda bildirilib ki, aşkar edilən kütləvi məzarlıqlar və insan qalıqları Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlıların amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirildiyini, nəşlərinin kütləvi şəkildə basdırıldığını deməyə əsas verir. Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında Xocavənd rayonunun Edilli kəndində aşkar edilən kütləvi məzarlıqda Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə girovluqda saxlanılarkən qətlə yetirilmiş 15-20 nəfər azərbaycanlı mülki şəxsin nəşinin 3 metr dərinlikdə basdırıldığı məlum olub.

Eləcə də Edillidə tapılmış məzarlıqda basdırılmış Azərbaycan hərbi qulluqçularının əl və ayaqlarının məftil və ya kəndirlə bağlanması kimi faktlar aşkarlanıb.Bu istiqamətdə aparılmış növbəti tədbirlər zamanı Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanıb. Fərrux kəndi yaxınlığında tapılmış qalıqların ekspertizası nəticəsində Ermənistan tərəfinin iddialarının əksinə olaraq, insanların heç bir qəbirüstü abidə və ya tanınma lövhəsi olmadan dəfn edildiyi və antropoloji təhlilə əsasən həmin insan qalıqlarının Azərbaycan türklərinə aid olduğu üzə çıxıb.



Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov ”Unikal”a açıqlamasında bildirib ki, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlərdən bütün dünya xəbər tutmalıdır. Odur ki, Ombudsmanın hesabatında yer alan məlumatlar dünyanın diqqətinə çatdırılmalıdır. Beynəlxalq təşkilatlar Ermənistanın müharibə dövründə insanlıq əleyhinə qatı cinayətlər törətdiyini, müharibə qanunlarını kobud şəkildə pozaraq insanları diri-diri torpağa basdırdığından xəbər tutmalı, bunları öz hesabatlarında göstərməlidirlər.

Onun sözlərinə görə, Azərbaycanın Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün diasporumuz da fəal olmalıdır.

“Azərbaycanın xarici ölkələrdəki diaspor təşkilatları Dağlıq Qarabağ həqiqətləri ilə bağlı xarici ölkələrdəki Ermənistan səfirlikləri qarşısında etiraz aksiyaları, tədbirlər keçirir. Ombudsmanın bu hesabatı dərc edilməli, dünyaya çatdırılmalıdır. Azərbaycan tərəfi bu həqiqətləri olduğu kimi dünyaya təqdim etməlidir. Xaricdə yaşayan Azərbaycanlılar bu məsələlərdə fəal olmalı, öz qalamızın qarşısını boş qoymamalıdır”.

Qeyd edək ki, Ombudsmanın sözügedən hesabatında bildirilir ki, sayı dörd minə yaxın olan itkin düşmüş azərbaycanlıların ailə üzvləri 30 ilə yaxındır ki, bu iztirablı taleyi yaşayır. Bəzi ailələrdən hətta bir neçə şəxs eyni vaxtda itkin düşüb. İtkin düşən azərbaycanlılarla bağlı məlumatların əldə edilməsi məqsədilə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıqda bir çox işlər görülsə də, gözlənilən nəticə əldə edilməyib. Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməyən Ermənistanın uzun illər boyu azərbaycanlılara qarşı həyata keçirdiyi nifrət, etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyünə qəsd edilmiş, dinc azərbaycanlı əhaliyə qarşı çoxsaylı cinayət aktları, xüsusilə də sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törədilib. Azərbaycan ərazilərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına nəinki qeyri-insani münasibət göstərilib, onlar hətta bir sıra müxtəlif məqsədlər üçün istifadə olunublar. Ermənistan cəmiyyətində nifrət hissinin artırılması məqsədi ilə mülki əhalinin ixtiyarına verilərək meydanlarda nümayişkaranə şəkildə alçaldılmış və təhqir ediliblər. Xüsusən zərərli istehsal sahələrində qul kimi istifadə olunublar. Erməni soyqırımı”nın anım günlərində və döyüşlərdə həlak olmuş terrorçu-quldur dəstəsi üzvlərinin və Ermənistan əsgərlərinin məzarı üzərində qurban kəsiblər. İşğal olunmuş yaşayış məntəqələrində tarixi abidələrin, qəbiristanlıqların, evlərin və inzibati binaların sökülməsində və talan olunmasında, başqa sözlə, vandalizm aktlarında istifadə ediliblər. Biri-birinə qarşı fiziki və qeyri-əxlaqi əməllər törətməyə təhrik ediliblər.

Ombudsmanın görüş keçirdiyi şəxslərdən biri, Xocalı soyqırımının canlı şahidi, faciə zamanı həyat yoldaşı həlak olmuş, özü isə əsir götürülərək işgəncələrə məruz qalmış Valeh Hüseynov başına açılan müsibətlər barədə danışarkən bunları deyib: “Girovluqda mənim musiqi ifaçısı olduğumu öyrənən erməni hərbçilər əllərimi sındırıb, daha sonra qaz sobasında yandırdılar. Həmin günlər ərzində davamlı olaraq döyülərək işgəncələrə məruz qaldım. Girovluğun ağrı-acılı 27 günü sanki 27 ilə bərabər idi”.

Xatırladaq ki, Birinci Qarabağ müharibəsi nəticəsində ümumilikdə 3890 nəfər itkin düşüb ki, onlardan 719 nəfəri mülki şəxs, 3171 nəfəri isə hərbçidir. İtkin düşmüş mülki şəxslərdən 20 nəfəri qız olmaqla, 71 nəfəri yetkinlik yaşına çatmamış şəxs, 154 nəfəri ahıl olmaqla, 267 nəfəri isə qadındır. Qeyd etmək lazımdır ki, itkin düşmüş 3890 şəxsdən 29-u uşaq, 98-i qadın, 112-si ahıl olmaqla, kəndlər və şəhərlər işğal olunarkən həmin ərazidə qalmış və öz evlərini tərk etməmiş 872 nəfər əsir-girov götürülüblər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Fond tərəfindən təmir olunan məktəb və bağçalar istifadəyə verilir

***Yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi istifadəyə veriləcək.***

“Unikal” xəbər verir ki, 15 sentyabr - Bilik Günü ərəfəsində 19 məktəb və 3 məktəbəqədər müəssisə Bakıda və regionlarda müəllim və şagirdlərə hədiyyə edilmiş olacaq.

Bu təhsil ocaqlarının mövcud binaları istismara yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 17 orta məktəb və 2 bağça üçün yeni bina inşa olunub, eləcə də 3 məktəb və məktəbəqədər müəssisənin binası əsaslı təmir edilib.

Bununla da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək göstərərək gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına öz töhfəsini vermiş olur.

Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsil sahəsində müxtəlif layihə və proqramlar həyata keçirir. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Fondun “Təhsilə dəstək” proqramı çərçivəsində isə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur.

## Füzulinin daha 102 sakini doğma yurda qayıtdı

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.***

”Unikal” xəbər verir ki, sentyabrın 7-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 102 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Füzuli şəhərində 95 ailə, yeni 349 nəfərin daimi məskunlaşması təmin edilib.



# Məcnun Məmmədov özbəkistanlı həmkarı ilə görüşdü

***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Özbəkistanda rəsmi səfərdədir. Səfər çərçivəsində nazir Məcnun Məmmədov və Özbəkistanın kənd təsərrüfatı naziri Əziz Voitov arasında ikitərəfli görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı rəsmi səfərlər zamanı iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı qarşıya qoyduqları tapşırıqların yerinə yetirilməsi, əməkdaşlığın gələcək fəaliyyət istiqamətləri ətrafında müzakirələr aparılıb.

Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Hər iki ölkə bütün sahələrdə əməkdaşlığı gücləndirmək istiqamətində təşəbbüsləri dəstəkləyir. Görüşdə Azərbaycanla Özbəkistan arasında hazırlanan Kənd Təsərrüfatı sahəsində Əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ətraflı müzakirə olunub. Tərəflər əsas əməkdaşlıq istiqamətlərinin Yol Xəritəsi üzrə müəyyənləşdirilməsinin təqdirəlayiq olduğunu vurğulayıblar.

Görüşdə Azərbaycanla Özbəkistan arasında kənd təsərrüfatının ipəkçilik, fındıqçılıq, şərabçılıq, kənd təsərrüfatı maşınqayırması və digər sahələrdə ən qısa zamanda konkret addımların atılması ilə bağlı razılığa gəlinib. Eyni zamanda, görüşdə sentyabrın 26-da Bakıda keçiriləcək Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirləri 2-ci Toplantısı və "Aqrobiznes forumu" tədbiri ilə bağlı məsələlər də müzakirə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Müəllimlərin sertifikasiyasının müsahibə mərhələsinə başlanılır

***Sentyabrın 8-dən müəllimlərin sertifikasiya imtahanlarının müsahibə mərhələsinə start veriləcək.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən bildirilib.

Müsahibə mərhələsinə dair Azərbaycan və rus bölmələri üzrə mövzular 18 avqust tarixində müəllimlərin şəxsi kabinetlərinə göndərilib. Müəllimlər miq.edu.az saytı və ya portal.edu.az platforması vasitəsilə hər iki bölmə üzrə müsahibə mövzuları ilə tanış ola bilərlər.

Qeyd edək ki, müsahibə mərhələsi ilə bağlı məlumatlar müəllimlərin şəxsi kabinetlərinə hissə-hissə göndərilir.

# Kolleclərə qəbul olunanların nəzərinə

***Bu gün saat 11:00-dan ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə əlavə yerləşdirmə üzrə qəbul olunanlar üçün qeydiyyat prosesinə start veriləcək.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, qəbul olunmuş şəxslər https://portal.edu.az/ sistemində qeydiyyatdan keçərək "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməklə müraciət edə bilərlər. Açılan səhifədə müvafiq qəbul xətti üzrə şəxsi və qəbul məlumatlarının təsdiq edilməsi, həmçinin tələb olunan sənədlərin əlavə edilməsi mümkündür.

Qeydiyyat 13 sentyabr saat 18:00-da başa çatacaq.

Müvafiq xidmətdən istifadə etməklə qeydiyyatdan keçməyən və təhsil müəssisəsindən təsdiq almayan şəxslər qəbul olunanların siyahısından xaric ediləcəklər.

# Vəzifəli şəxs rektor keçmək üçün 250 min manat veribmiş

***Azərbaycan Kikboksinq Federasiyasının dələduzluqda təqsirli bilinərək 7 il 6 ay həbs cəzasına məhkum edilən sabiq vitse-prezidenti, idmançı Səbuhi Rəcəbin törətdiyi əməllərlə bağlı maraqlı faktlar üzə çıxıb.***



"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, iş üzrə 3 nəfər zərərçəkmiş şəxs qismində tanınıb.

Onlardan biri Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun "Ümumi Cərrahiyyə-2" kafedrasının rəhbəri, tibb elmləri doktoru Şahin Əliyevdir. Belə ki, Səbuhi Rəcəb Şahin Əliyevə onu həmin instituta rektor vəzifəsinə düzəldəcəyinə dair yalan vəd verib. Bu məqsədlə o, tanınmış alimdən 250 min manat pul alıb. Lakin verdiyi vədə əməl etməyərək pulu ələ keçirib. İstintaq müddətində S.Rəcəb kafedra müdirindən aldığı pulların yalnız 40 min manatını geri qaytarıb.

Məhkəmədə Şahin Əliyev bildirib ki, məsələ gündəmə 2018-ci ilin aprel ayında səhiyyə nazirinin müavini Abbas Vəlibəyovun vəfatından sonra gəlib: "Bundan sonra səhiyyə işçiləri arasında şayiə gəzirdi ki, işlədiyim Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru səhiyyə nazirinin birinci müavini vəzifəsinə təyin olunacaq. Mən də karyera pilləkəni ilə qalxmaq arzusunda idim və işlədiyim istitutun rektoru vəzifəsinə təyin olunmaq istədim. Bundan sonra yüksəkvəzifəli məmurlarla tanışlıq yarada biləcək adam axtarmağa başladım və bu barədə yaxın bildiyim insanlara dedim. Bu insanlardan biri də ödənişli ekstrasens xidmətlərindən bir neçə dəfə istifadə etdiyim Mehriban adlı qadın idi. Mehriban bir neçə illik tanışım idi, atam ağır xəstəlikdən əziyyət çəkəndə o müalicə etmişdi. Buna görə də bacılarımın və yaxınlarımın məsləhəti ilə həmin ekstrasens Mehribana müraciət etdim.

Onun xidmətləri ilə bağlı çoxlu imkanlı və vəzifəli şəxslərin müraciət etdiklərini bilirdim və ona istədiyim iş barədə danışdım. Mehriban mənə vəzifəyə təyin olunmağını təşkil etmək üçün yüksəkvəzifəli məmurlarla vasitəçilik edə biləcək adam tanıdığını bildirdi. Bundan bir neçə gün sonra mənə dedi ki, tanıdığı adam var və məni 250 000 manata Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifəsinə təyin olunmağımda köməklik edəcək".

Zərərçəkmiş şəxs bildirib ki, bundan sonra Mehriban onu Səbuhi Rəcəblə tanış edib. Ş.Əliyev Səbuhiyə ilkin olaraq 100 min manat, daha sonra isə 2 qohumundan borc almaqla 150 min manat verib. Lakin S.Rəcəb verdiyi vədə əməl etməyərək pulları ələ keçirib.

Ş.Əliyev həmçinin bildirib ki, borc aldığı 150 min manatı qaytarmaq üçün Novxanıdakı bağ evini satmalı olub.

Araşdırmalar zamanı S.Rəcəbin daha 2 nəfərdən lüks avtomobil alınması adı ilə müvafiq olaraq 40 və 51 min manat alaraq dələduzluq etməsi də müəyyən edilib.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən proses bu ilin 4 sentyabrında yekunlaşıb. İdmançı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq-külli miqdarda ziyan vurmaqla) maddəsi ilə təqsirli bilinib. O, 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Səbuhi Rəcəb BDU-nun Hüquq fakültəsini bitirib. Konstitusiya Məhkəməsində işləyib. Eyni zamanda peşəkar idmançı və biznesmen olub. 2015-ci ildə isə Kikboksinq Federasiyasında vitse-prezident kimi çalışıb.

# Payızın dəbi necə olacaq? - Modelyer açıqladı

***Yeni başlanğıcın simvolu olan sentyabr ayı ilə payız aylarına zəriflik və rahatlıq bəxş edən geyimlər sizi daha dəbli göstərə bilər. Həm zövqlü, həm də dəbə uyğun libas seçimində tərəddüd edənlər artıq payız mövsümünün geyimləri ilə maraqlanmağa başlayıblar. Bəs görəsən, bu ilin payız mövsümünün geyim tərzi necə olacaq?***



Bu barədə "Unikal"a danışan modelyer-dizayner Şəlalə Maqsudova bildirib ki, hər il olduğu kimi, bu il də payız kolleksiyasında dəyişikliklər bizi gözləyir:

"2023-cü ilin payız mövsümündə həm geyimlərdə, həm də rənglərlə dəyişikliklər olacaq. Bu sezonda ən çox oversayz geyimlər (bədən ölçüsündən böyük olan boş, tökülən geyimlər), o cümlədən, "street style" yəni küçə stili daha çox dəbdə olacaq".

Modelyerin sözlərinə görə, bu sezonun rəng tonları da xüsusilə fərqlənəcək:

"Dünyaca tanınmış dizaynerlər tərəfindən bu il payız kolleksiyasına göy və narıncı tonlar təklif olunub. Təbii ki, ağ və qara klassik rəngi dəyişməz olaraq qalacaq. Bu fəsilə görə, parçalarda da müəyyən dəyişikliklər olacaq. Bəzi şifon, dantelli, nazik kətanlar öz yerini cins, qalın kətan ,nazik toxunma parçalara verəcək".

***Gülayə Mecid***

# "Aztelekom"un rəhbəri dəyişdi

***Tural Pirverdiyev Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Aztelekom" MMC-nin Baş direktoru təyin edilib.***

O, bu vəzifədə Elçin Niyazovu əvəz edib.

T. Pirverdiyev, "Azercell Telecom" şirkətinin maliyyə direktorunun müavini və nəzarət şöbəsinin müdiri vəzifəsində çalışıb. Xatırladaq ki, "Aztelekom" 1996-cı ildən fəaliyyət göstərən eyni adlı İstehsalat Birliyinin bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 22,525 milyon manat təşkil edir. Milli rabitə operatoru olan şirkət fərdi və korporativ müştərilərə, rabitə operatorlarına və digər istifadəçilərə müxtəlif xidmətlər göstərir.

AZTELEKOM

# Əkin və bağ sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır

***Qubada meliorativ tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, ölkəmzin ən böyük meyvəçilik rayonlarından biri olan Qubada suvarma mövsümü davam edir.***

Cari ildə Quba Suvarma Sistemləri İdarəsi tərəfindən 96 milyon m3 həcmində su götürülməklə 67 min 999 hektar sahədə suvarılma aparılıb. Havaların yağıntılı keçməsi səbəbindən suvarma suyunun fermerlərə çatdırılmasında çətinlik yaşanmıyıb. Bununla belə idarə əməkdaşları tərəfindən təsərrüfat sahiblərini fasiləsiz suvarma suyu ilə təmin etmək məqsədi ilə tədbirlər davam etdirilir. Belə ki, torpaq kanallar lil və kol-kosdan təmizlənir eləcə də hidrotexniki qurğular cari təmir edilir.

edir. Fermer və təsərrüfat sahiblərini vaxtında su ilə təmin etmək məqsədi ilə Qusar Suvarma Sistemləri İdarəsi tərəfindən torpaq məcralı kanallar lil və kol-kosdan təmizlənir. Cari ildə 2250 min kubmetr lildən təmizləmə işləri görülüb





Həm cari həm də növbəti mövsümdə hər hansı çətinliyin yaranmaması üçün Quba Suvarma Sistemləri idarəsi tərəfindən sahilbərkitmə işləri də aparılır. Bu da öz növbəsində suvarma suyundan səmərəli şəkildə istifadə etməyə imkan verir. Həçminin Qusarçayın Quba rayonu Çartəpə kəndi ərazisindən keçən hissəsində bəndvurma işlərinə də başlanılıb.

Həm suvarma suyunun bol olması həm də görülən tədbirlər nəticəsində sahələrin vaxtında suvarılması fermerlərin də üreyincədir. Onlar bildirir ki, məhz bu səbəbdən ötən illərlə müqayisə də məhsuldarlıq yüksəkdir.

Qeyd edək ki, Quba rayonunda 26 min 33 hektar suvarılan torpaq sahəsi mövcuddur. Sahələrin suvarma suyuna olan tələbatı rayon ərazisindən keçən dağ çaylarından eləcədə 58 ədəd subartezian quyusundan qaldırılan su heabına ödənilir. Suvarma suyunun su mənbələrindən götürülərək təsərrüfatlara çatdırılmasında 362.2 km açıq və 192.9 km qapalı boru olmaqla 555.1 km uzunluğunda suvarma şəbəkəsindən istifadə olunur.

Qusarda meliorativ tədbirlər görülür. Dilqəm Şərifov bildirib ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qusar rayonunda da əkin və bağ sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Hazırda rayonda yaz-yaz suvarma mövsümü davam və bu proses davam etdirilir.

Yeni suvarma mövsümünə hazırlıq məqsədi ilə görülən işlərdən biri də torpaq kanalların beton üzlüyə alınmasıdır. Bu da öz növbəsində su istehlakçılarını vaxtında və itkisiz suvarma suyu ilə təmin etməyə imkan verir. Cari ildə Qusar rayonunda 2 min metr torpaq məcralı kanalın beton üzlüyə alınması nəzərdə tutulub. Bununla yanaşı rayon ərazisindən keçən çayların daha çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə tədbirləri görülərək, çay məcraları tənzimlənir, sahilqoruyucu və su istiqamətləndirici bəndlər qurulur.

Vaxtında görülən meliorativ tədbirlərin nəticəsidir ki, artıq əvvəllər yaşanan problemlər aradan qalxıb. Hazırda təsərrüfat sahibləri sahələrini suvarmaqda heç bir çətinlik yaşamırlar. Bu da öz növbəsində daha çox məhsul istehsalına zəmin yaradır.

Qeyd edək ki, Qusar rayonunda 29 min 300 hektar suvarılan ərazi mövcuddur. Bu sahələr 1579 km uzunluğunda olan kanallar vasitəsi ilə suvarılır. Bu kanalların 1381 km-i torpaq, 187 km-i isə beton məcralıdır.

Hacıqabulda Ələtli torpaq kanalı beton üzlüyə alınır. Dilqəm Şərifov bildirib ki, Hacıqabul rayonu iqtisadiyyatının əsasını təşkil edən aqrar sahəyə xidmət göstərən Hacıqabul Suvarma Sistemləri İdarəsinin vəzifəsi 2023-cü ildə rayonun 19 min hektardan artıq suvarılan torpaqlarında kənd təsərrüfatı əkinlərini, meşə zolağını və 34 min hektar qış otlaqlarında su təminatını həyata keçirməkdən, mülkiyyətdə olan suvarma sistemlərinin istismarını təşkil etməkdən, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir. Bu əsas vəzifənin yerinə yetirilməsi üçün idarənin balansında olan suvarma sistemlərinin qorunub saxlanılması, onların normal iş rejimində istismar olunmasına cidi diqqət yetirilir. Su itkisinin qarşısının alınması istiqamətində idarə tərəfindən hər il işlər həyata keçirilir. Bunlara bariz nümunə olaraq hazırda beton üzlüyə alınan Ələtli kanalını göstərmək olar. Ələtli kanalının beton üzlüyə alınması xidməti ərazisində olan əkin sahələrinin suvarılmasını yaxşılaşdıracaq.

Ümumilikdə Hacıqabul rayonunda bu il müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilib və əkinin mövsümə uyğun davam etdirilməsi nəzərdə tutulub. Bunlar taxıl, pambıq, şəkər çuğunduru, yem bitkiləri, bostan-tərəvəz, qarğıdalı, çoxillik əkinlər, həyətyanı sahələr və digər bitkilərdir. Fermerlər son illər əkdikləri bitkiləri daha asan suvara bildiklərini söyləyirlər.

İdarə tərəfindən ötən il 78 ədəd hidrotexniki qurğu, 2 km nov kanallar, 3 km beton kanallarda, 2 km boru xətlərində, 7 ədəd mülki və istehsalat binasında, 7 ədəd nasos stansiyada cari təmir işəlri yerinə yetirilib. Əsaslı təmir işləri üzrə boru kəmərində 1,3 km məsafədə 200 mm-lik poluetilen borudan yeni boru xətti çəkilib. Bundan başqa 23 ədəd hidrotexniki qurğu, 1 km nov kanallar, 2,5 km beton kanallarda, 1 km boru xəttində, 5 ədəd mülki və istehsalat binalarında, 4 ədəd nasos stansiyada cari təmir işləri həyata keçirilib.

Qeyd edək ki, quraqlıqla əlaqədar Pirsaat Su Anbarı altında olan əkinlərin su təminatında yaranmış çətinliklərin aradan qaldırılması üçün daxili imkanlar səfərbər edilərək kəndlərin suvarma növbəliliyi tətbiq olunub və bunun sayəsində Pirsaat Su Anbarında suvarılmalı olan Navahi, Atbulaq, Qızılburun kəndlərinin ərazilərində olan əkinlər Navahi nasos stansiyası hesabına su ilə təmin olunur.

***Hüseyn İsgəndərov***



# Milli Qəhrəman Valeh Müslümov anıldı

***Birinci Qarabağ müharibəsində Vətənin bütövlüyünü hər şeydən əziz bilən və bu yolda son damla qanına qədər döyüşüb şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Azərbaycanın Milli Qəhrəmanı, şəhid Valeh Əlizaid oğlu Müslümovdur. O, 1968-ci ildə Lerik şəhərində dünyaya göz açıb. Tez bu işıqlı dünyanı tərk etsə də, şərəfli bir yol keçməklə əbədi olaraq milyonların ürəyində özünə yer etməyi bacardı. Lerik camaatı Valehin adı ilə fəxr edir, örnək olaraq əziz xatirəsini həmişə uca tuturlar. Adəti üzrə 55 yaşının tamamında da Lerik şəhərində tədbir keçirildi.***

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasovun, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, şəhid ailə üzvlərin, rayon sakinlərin qatıldığı tədbirdə şəhidin məzarı və büstü ziyarət olundu, gül çələnginə büründü. Daha sonra Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı, Vətən sevdalı şəhid Valeh Müslümovun həyatı və döyüş yolu haqqında ətraflı məlumat verildi.

Çıxışlar zamanı "Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarının əziz xatirəsi həmişə ehtiramla yad edilir, onların keçdiyi döyüş yolu bir nümunə kimi təbliğ olunur"- deyən rayon rəhbəri daha sonra bildirdi ki, Valeh Müslümov Vətən uğrunda canından keçərək 23 yaşında əbədiyyət dünyasına qovuşub. O, düşmənlə qeyri-bərabər döyüşdə yaralanmış 11 nəfər döyüşçü yoldaşını xilas edərək təhlükəsiz zonaya apararaq əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. Onun igidliyinə dövlət tərəfindən yüksək qiymət verilib. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 6 iyun tarixli 831 nömrəli Fərmanı ilə ilk dəfə "Azərbaycan Milli Qəhrəmanı" adını almış 11 nəfərdən biri Valeh Müslümov olmuşdur. Eləcə leriklilərin igid oğlu Valeh ilə bağlı dövlət tərəfindən digər işlər də görülüb. Təhsil aldığı orta məktəb onun adını daşıyır, qarşısında büstü ucaldılıb. Həmçinin şəhərin ən böyük küçəsi də ölməz qəhrəmanın adınadır.

Xalqımız Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında dəmir yumruq kimi birləşərək Vətən müharibəsində qəhrəmanlıq tarixi yazıb, 30 il əsir düşən cənnət məkan yurd yerlərimiz azad olundu. Vətən müharibəsində dağlar diyarından olan qeyrətli oğullarımız da qazanılan zəfərdə misilsiz rəşadət göstəriblər.

Vətən Müharibəsi Qəhrəmanı, şəhid Amid Heydərovun atası Rəbbil Heydərovun, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin rəisi polkovnik Arif Həsənovunun, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə gənclər və idman sektorunun müdiri Natiq İsaqov çıxışları da qururlu alındı: "Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsi həmişə ehtiramla yad edilir, şəhidlərin doğum günləri münasibətilə tədbirlər mütəmadi keçirilir, onların şərəfli döyüş yolu təbliğ olunur. Şəhid Valeh Müslümovun qəhrəmanlığı xalqımızın qəlbində daim yaşayacaq, şərəfli həyatı gələcək nəsillərə həmişə örnək olacaq".

Şəhid ailələrinə göstərilən ehtirama, diqqət və qayğı görə ölkə rəhbəri cənab İlham Əliyevə, eləcə bütün xalqına razılığını bildirən Milli Qəhrəmanın atası Əlizaid Müslümov həm də dedi ki, oğlumun adını şirin dillərdə eşidəndə qürur duyuram. Vətənə sevgisi Valehi ən ali mərtəbəyə yüksəldib. İndi bütün xalq onun qəhrəmanlığı ilə iftixar edir.

Tədbirdə şəhidin adını daşıdığı şəhər 2 saylı tam orta məktəbin şagirdlərin ifasında Vətəni, qəhrəmanlığı vəsf edən ədəbi bədii kompozisiya nümayiş olundu.

***Zəfər Orucoğlu, AJB üzvü***

# BMT taxıl müqaviləsini bərpa etməyə çağırıb



***Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibi Antonio Quterreş taxıl müqaviləsinin hazırkı vəziyyətini şərh edib.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, Quterreş mətbuat konfransında taxıl müqaviləsinin bərpasına çağırıb və bu məqsədi BMT-nin əsas hədəflərindən biri hesab edib.

"Biz bu gün beynəlxalq ticarətin arxitekturası səviyyəsində mövcud olan bir sıra məhdudiyyətləri aradan qaldırmaq üçün mümkün olan hər şeyi etməliyik, yəni burada əsas məqsədlərdən biri Qara dəniz təşəbbüsünü bərpa etməkdir", - deyə BMT-nin baş katibi vurğulayıb.

***Seymur Əli***

# "Bayden növbəti prezident seçkilərində iştirak edə bilməyəcək" - Tramp



***ABŞ lideri Co Bayden ölür və 2024-cü ildə keçiriləcək növbəti prezident seçkilərində iştirak edə bilməyəcək.***

"Unikal" xəbər verir ki, ABŞ-nin keçmiş prezidenti Donald Tramp bildirib.

"Co Bayden... Düşünürəm ki, o, ölür. Şəxsən mən onu prezidentlik yarışında görmürəm", - deyə eks-prezident açıqlayıb.

***Ağarza Elçinoğlu***

# ABŞ tezliklə Kiyevə kasetli sursatların yeni partiyasını təhvil verəcək



***ABŞ yaxın vaxtlarda Ukraynaya kasetli sursatların yeni partiyasını göndərməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ rəsmilərinə istinadən "New-York Times" qəzeti yazıb.

"ABŞ Ukraynaya qoşunlarının döyüş sursatı tükənməməsi üçün ilk sursat göndərdikdən iki ay sonra, Bayden administrasiyası daha çox silah göndərməyi planlaşdırır", - məqalədə deyilir.

Qəzetin yazdığına görə, ABŞ ilkin olaraq Ukraynaya nə qədər çoxlu mərmi ötürüldüyü barədə məlumat vermək niyyətində deyil.

Xatırladaq ki, iyulun 7-də Ağ Ev kasetli sursatların Ukraynaya təhvil verildiyini elan edib.

***Gülayə Mecid***

# "Vaqner"in yeni lideri kim olacaq?



***"Vaqner" özəl hərbi şirkətinin komandirləri Krasnodar diyarındakı Molkino bazasına qayıdıblar.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bazada komandirlər şurası keçiriləcək. Burada onlar "Lotus" ləqəbli komandir Anton Elizarovu qrupun yeni rəhbəri kimi təsdiq edə bilərlər.

Məlumata görə o, hazırda "Vaqner"in rəhbəri vəzifəsini icra edir. Priqojinin vəsiyyətinə görə, onun biznes aktivlərini oğlu Pavel idarə edəcək.

# "Bu adam düşünmədən danışır" - Zaxarovadan Simonyana cavab

***Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan parlamentinin spikeri Alen Simonyanın onu "hansısa katibə" adlandırdığı iradına cavab verib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Telegram" kanalında məlumat dərc edib.

"Səviyyə ilə bağlı açıq problemlərin olduğunu mübahisə etmək çətindir. Və mən planetin bütün "katibələrinə" dəstək sözləri demək istəyirəm. Xanım yoldaşlarım! Sizin işiniz hətta ən yüksək səviyyəli müdirin də uğurunun açarıdır. Gündəlik, zəhmətkeş işinizlə yanaşı, o cümlədən, görüşlər təşkil etmək, sənədlərlə işləmək, zəngləri qəbul etmək və milyonlarla müxtəlif narahatlıqları həll etmək bizim işimizdir. Bu adam (Alen Simonyan - red.) əminəm ki, düşünmədən danışıb", - Zaxarova yazıb.



Xatırladaq ki, Ermənistan parlamentinin spikeri Alen Simonyan yerli mətbuata açıqlamasında Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın "Ermənistan nümayəndələri son vaxtlar Laçın yolundakı vəziyyətlə bağlı "kobudluğa yaxın" ritorikada danışırlar", deməsinə cavab olaraq, ona "hansısa idarənin hansısa katibəsinin sözlərinə şərh vermək fikrində" olmadığını demişdi.

***Gülayə Mecid***

# "Hərbi-siyasi vəziyyət xeyli pisləşib" - Paşinyan



***"Hərbi-siyasi vəziyyət xeyli pisləşib". "Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.***

O, həmçinin bildirib ki, Ermənistan sülh gündəminə sadiqdir, Azərbaycanla sülh sazişi imzalamaq istəyir və buna hazırdır.

Qeyd edək ki, bugünkü sessiyanın gündəliyinə 40 məsələ daxildir ki, onlardan 34-ü barədə məlumat verilmir, daha 3 məsələ məxfi xarakter daşıyır.

***Ağarza Elçinoğlu***

# "ABŞ Rusiya ilə müharibədə qalib gələ bilməz" - Amerikalı kəşfiyyatçı

***Amerikalı generallar başa düşürlər ki, Rusiya ilə müharibədə qalib gələ bilməyəcəklər, ona görə də ABŞ Rusiya Federasiyası ilə genişmiqyaslı münaqişəni inkişaf etdirməyəcək.***

"Unikal" xəbər verir ki, bunu ABŞ Silahlı Qüvvələrinin keçmiş kəşfiyyatçısı Skot Ritter deyib.

Belə ki, o, amerikalı jurnalist Taker Karlsonun 2024-cü ildə ABŞ-ın Rusiyaya qarşı müharibəyə başlaya biləcəyi ilə bağlı sualına belə reaksiya verib:



"Biz (ABŞ) Rusiya ilə müharibədə nə adi silahlarla, nə də nüvə silahları ilə qalib gələ bilməyəcəyik. Bunun üçün nə edəcəyimizin heç bir əhəmiyyəti yoxdur. Ona görə də bu haqda danışmaq belə axmaqlıqdır".

***Gülayə Mecid***

# Moskvanı qorumağa cavabdeh olan general həbs edildi

***Rusiyalı general-mayor Konstantin Oqienko həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Moskva Qarnizon Hərbi Məhkəməsi qərar çıxarıb.

O, rüşvət almaq ittihamı ilə istintaq təcridxanasına göndərilib. Hadisənin nə zaman baş verdiyi açıqlanmasa da, bu yaxınlarda onun həbs müddəti noyabrın 27-dək uzadılıb.

Oqienko indiyə qədər 1-ci xüsusi təyinatlı zenit və raket əleyhinə müdafiə ordusunun komandiri olub. Ordu Moskvanı potensial düşmən tərəfindən təyyarələrin, qanadlı raketlərin və qitələrarası ballistik raketlərin hücumlarından qorumaq vəzifəsini yerinə yetirir.

# "Təhlükəsizlik üçün Ermənistana güvənirik" - Lavrovun müavini

***Moskva və İrəvan hərbi və siyasi əməkdaşlığı gücləndirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib. "Ermənistan KTMT üzvüdür və biz bu reallıqdan çıxış etməyə davam edirik. Moskva və İrəvan hərbi və siyasi əməkdaşlığı gücləndirəcək. O, bizim müttəfiqimizdir və biz təhlükəsizlik üçün bir-birimizə güvənirik", - deyə XİN rəsmisi qeyd edib.

***Ağarza***

# “Qarabağ” rəsmisi ECA-da vəzifəyə seçildi

***“Qarabağ” Futbol Klubunun İdarə Heyətinin üzvü Asif Əsgərov Avropa Klublar Birliyinin (ECA) qərarverici orqanı olan İcraiyyə Şurasına üzv seçilib.***




O, qurumun Berlində təşkil olunan Assambleyası çərçivəsində bu gün keçirilən seçkidə klubların səs çoxluğunu qazanıb. Bununla da A.Əsgərov beynəlxalq nüfuzlu futbol qurumlarının rəhbər və qərarverici orqanlarında təmsil olunan ilk azərbaycanlı olub.

Qeyd edək ki, Avropa Klublar Birliyi özündə qitənin 500-dək klubunu birləşdirir. Azərbaycandan həmin təşkilatda “Qarabağ”, “Qəbələ”, “Neftçi” və “Sumqayıt” təmsil olunur.

A.Əsgərovun namizədliyini Avropanın bir neçə aparıcı klubu irəli sürüb.

# 19 ildə ilk dəfə "Qızıl top"a namizədlər siyahısına salınmadı



***Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubunun portuqaliyalı futbolçusu Kriştiano Ronaldo 19 ildə ilk dəfə “Qızıl top”a iddialılar siyahısına salınmayıb.***

”Unikal” xarici mediaya istinadən xəbər verir ki, ”France Football” jurnalı mükafata 30 namizədin siyahısını dərc edib. “Qızıl top”un beşqat qalibi Ronaldo oraya daxil olmayıb. Portuqaliyalı hücumçu daha əvvəl 2008, 2013, 2014, 2016, 2017-ci illərdə bu mükafata layiq görülüb.

2022/23 mövsümünün ən yaxşı futbolçusuna verilən ”Qızıl top”un mükafatlandırma mərasimi oktyabrın 30-da Parisdəki Şatle Teatrında keçiriləcək.

”Qızıl top” 1956-cı ildə ”France Football” tərəfindən Avropada ilin ən yaxşı oyunçusuna verilən mükafat kimi təsis edilib.

***Nuranə Abbasova***

# Hazard Belçika klubunda

***Torqan Hazard ”Borussiya Dortmund” klubundan ”Anderlext” klubuna transfer olunub.***




”Unikal” xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb.

Dortmund təmsilçisi bu keçiddən 4 milyon avro qazanacaq.

Ermənistan millisi Türkiyəyə getdi

Futbol üzrə Ermənistan milli komandası Türkiyəyə yollanıb.

”Unikal” xəbər verir ki, ukraynalı Aleksandr Petrakovun rəhbərlik etdiyi komanda sentyabrın 8-də Avro-2024-ün seçmə turnirində Türkiyə yığması ilə qarşılaşacaq, sentyabrın 11-də isə İrəvanda xorvatları qəbul edəcək.

V turun Türkiyə-Ermənistan oyunu sentyabrın 8-də Əskişəhər şəhərində keçiriləcək və Bakı vaxtı ilə saat 22:45-də başlayacaq.

Türkiyə - Ermənistan matçını Daniele Orsatonun başçılıq etdiyi italiyalı hakimlər idarə edəcək. Ona Ciro Carbone və Alessandro Gialatini kömək edəcək. Dördüncü hakim funksiyası isə Antonio Rapuanodur.

***Ağarza Elçinoğlu***

# Avro-2024-ün oyunları bu kanallarda

***Avro-2024-ün seçmə mərhələsinin 5-ci turunda bu gün keçiriləcək bəzi matçlara Azərbaycan və Rusiya telekanalları vasitəsi ilə canlı yayımlanacaq.***

Qol.az xəbər verir ki, matçlar aşağıda qeyd olunan kanallar vasitəsi ilə açıq yayımla nümayiş olunacaq:

**AZƏRBAYCAN**

”CBC Sport”

23:00. Fransa - İrlandiya

**RUSİYA**

”Matç TV”

18:00. Qazaxıstan - Finlandiya

”Matç Premyer”

20:00. Litva - Monteneqro

22:45. Niderland - Yunanıstan

”Futbol 2”

22:45. Serbiya - Macarıstan

”Futbol 3”

22:45. Çexiya - Albaniya




# AFFA Vaqif Cavadovu cəzalandırdı

***AFFA İntizam Komitəsi ”Sumqayıt” klubunun əvəzedicilərdən ibarət komandasının baş məşqçisi Vaqif Cavadovu cəzalandırıb.***



”Unikal” xəbər verir ki, buna 34 yaşlı mütəxəssisin ”Neftçi-2” ilə oyun bitdikdən sonra hakimin qərarına etiraz etməsi səbəb olub.

Cavadov birbaşa qırmızı vərəqə aldığı üçün iki oyunluq cəzaya, ”gənclik şəhəri” təmsilçisi isə 150 manat cərimməyə məruz qalıb.

# "Kayserispor"un baş məşqçisi istefa verdi



***”Kayserispor” klubunun baş məşqçisi Çağdaş Atan vəzifəsində istefa verib.***

”Unikal” xəbər verir ki, bu barədə 43 yaşlı mütəxəssis öz sosial şəbəkə hesablarında paylaşım edib. O, Türkiyə Superliqası təmsilçisindən ayrıldığını bildirib.

Qeyd edək ki, Ç.Atan O, 2022-ci ilin iyul ayından ”Kayserispor”un baş məşqçisi idi.

# Azərbaycan klubu ÇL-ə məğlubiyyətlə başladı

***Minifutbol üzrə ”Zirə” klubu Çempionlar Liqasında ilk oyununa çıxıb.***



Azərbaycan təmsilçisi Rumıniyada Ukraynanın ”Andezit” klubu ilə qarşılaşıb və 0:1 hesabı ilə uduzub.

”Zirə”- ”Andezit” - 0:1

Qol: Andrey Çopa, 11

”Zirə” Bakı vaxtı ilə saat 20:00-da Bolqarıstan ”Terra Trak”ı ilə üz-üzə gələcək.

Qeyd edək ki, bu gün həmçinin digər Azərbaycan klubu “Birbaşa Bakı” da iki görüş keçirəcək.

# İlin ən yaxşı qapıçısı adına namizədlər bilindi




***”France Football” jurnalı ilin ən yaxşı qapıçısına verilən ”Lev Yaşin” mükafatına namizədləri açıqlayıb.***

Qol.az xəbər verir ki, namizədlər siyahısına 10 qapıçı daxil edilib.

Tibo Kurtua (”Real”), Yassin Bunu (”Əl-Hilal”), Mayk Manyen (”Milan”), Mark-Andre ter Ştegen (”Barselona”), Ederson (”Mançester Siti”), Andre Onana (”Mançester Yunayted”), Aaron Remsdeyl (”Arsenal”), Emiliano Martines (”Aston Villa”), Dominik Livakoviç (”Fənərbaxça”), Bris Samba (”Lans”)

Bu mükafatın qalibi 30 oktyabr 2023-cü ildə keçiriləcək ”Qızıl top” mərasimində elan ediləcək.